# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 33 (3449) Cümə axşamı / 25-31 avqust 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Rusiya Ordusuna qarşı iki rus batalyonu döyüşür



**Elxan Nuriyev,**
hərbi ekspert,
polkovnik

*Ukrayna Ali Radasının hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi və Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik Elxan Nuriyev hafta.az-a bu dəfəki müsahibəsində iyul-avqust aylarındakı hərbi əməliyyatlar nəticəsində Rusiya-Ukrayna cəbhəsində hansı dəyişikliklər, Ukraynanın Müstəqillik günü ərəfəsində Rusiya tərəfindən gözlənilən hücum və təxribatlar, "rus dünyası"nın ideoloqu Aleksandr Duqinin qızının avtomobilinin partladılması nəticəsində baş verən ölümü ətrafındakı versiyalar və s. mövzularında danışdı.*

*Rusiya Ordusunun infrastrukturu, bazaları, kazarmaları, logistikaları məhv edilir*

Səh. 5

# Qazaxıstan ilə əməkdaşlıqda yeni mərhələ

***Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana rəsmi səfər etdi. Bu səfər iki ölkə arasında qarşılıqlı iqtisadi-siyasi və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinə təkan verməklə yanaşı, Azərbaycanın Mərkəzi Asiya dövlətləri, xüsusilə də türk dünyası ilə əlaqələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Aparılan ikitərəfli müzakirələrin gündəliyinin genişliyi, imzalanan sənədlərin sayı, həmçinin dövlət başçılarının səsləndirdikləri bəyanatlar bölgəmiz, həmçinin postsovet məkanı üçün yaşanan həssas bir dönəmdə Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin yeni müstəviyə keçirilməsinin zəruriliyini ortaya qoyur. Qeyd edək ki, rəsmi səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə qazaxıstanlı həmkarı arasında öncə təkbətək, daha sonra nümayəndə heyətlərin iştirakı ilə geniştərkibli görüşlər keçirilib. Sənədlərin imzalanması mərasimi olub. Daha sonra dövlət başçıları mətbuata birgə bəyanatla çıxış ediblər.***



### 20-dən çox sənəd imzalandı

**Prezident İlham Əliyev bildirib ki, Qazaxıstan Prezidentinin ölkəmizə səfəri xalqlarımız arasında dostluğun və qardaşlığın təzahürüdür: "Bu gün səfər çərçivəsində ikitərəfli gündəliyin aktual məsələlərinə, regional təhlükəsizliklə bağlı məsələlərə, beynəlxalq problemlərə dair ətraflı danışıqlar aparıldı, çoxlu sənədlər imzalandı.**

Onlardan bəziləri bizim iştirakımızla, 20-dən çox sənəd isə bu gün müvafiq strukturlar arasında imzalandı. Bu, münasibətlərimizin daha geniş hüquqi bazasını yaradır. Əlbəttə, həmin sənədlər içərisində Qazaxıstan ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəmlənməsi və müttəfiqlik qarşılıqlı əlaqələrinin dərinləşməsi haqqında indicə imzalanmış Bəyannaməni xüsusi qeyd etmək istərdim.

Bu Bəyannamənin adı sənədin əhəmiyyətinə dəlalət edir. Biz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqlərik. Əlbəttə, bu, bizim üzərimizə xüsusi məsuliyyət qoyur və biz bu məsuliyyətə hazırıq. Bəyannamə bizim əməkdaşlığımızın çox istiqamətlərini əhatə edir və əlbəttə ki, gələcək fəaliyyətimiz üçün çox ciddi baza kimi xidmət edəcək".

### Beynəlxalq səviyyədə əməkdaşlıq

**Prezident daha sonra vurğulayıb ki, biz aparıcı beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq və əlbəttə, çoxtərəfli əməkdaşlıq üçün yeni ilkin şərtlər yaranır.**

İyun ayında Bakıda Azərbaycan, Qazaxıstan və Türkiyənin xarici işlər və nəqliyyat nazirlərinin görüşü oldu: "Bu, çoxtərəfli əməkdaşlığın yeni formatıdır və bu əməkdaşlığın böyük perspektivləri var. Birgə Bəyannamədə həm də Azərbaycanın Mərkəzi Asiyanın beş ölkəsi ilə çoxtərəfli əməkdaşlığının gələcəkdə mümkün inkişafı da əksini tapıb. Fikrimcə, bu da təbiidir, çünki xalqlarımızın tarixi də, ənənələri də, mədəniyyəti də bütün sahələrdə daha sıx qarşılıqlı fəaliyyət göstərilməsini tələb edir".

### Orta Dəhlizin inkişafı

**Dövlət başçısının sözlərinə görə, nəqliyyat-logistika sahələri haqqında ətraflı müzakirələr olub və hökumətin üzvlərinə əlaqələri intensivləşdirmək barədə müvafiq tapşırıqlar verilib:** "Çünki ölkələrimizi birləşdirən Orta Dəhlizin çox böyük perspektivləri var. Artıq həm Qazaxıstanda, həm də Azərbaycanda böyükhəcmli yüklərin nəql etməyə imkan verən müasir infrastruktur yaradılıb. Lakin biz əməkdaşlığın gələcək istiqamətlərini müəyyən etmişik ki, Orta Dəhlizin buraxıcılıq qabiliyyətini daha da artıraq.

Birgə Bəyannamədə Azərbaycanın Şərqi Zəngəzur rayonunun Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinin vacibliyi də qeyd edilib. Bu da Orta Dəhlizin tərkib hissəsi olacaq. Mən işğaldan azad edilmiş ərazilərdə gördüyümüz işlər barədə Kasım-Jomart Kemeleviçi məlumatlandırmışam.

Fürsətdən istifadə edib Qazaxıstan Prezidentinə işğaldan azad edilmiş Füzuli şəhərində Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin yaradılması təşəbbüsünə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Bu gün həmin mərkəzin təqdimatı keçirildi və biz Qazaxıstanda keçmiş məcburi köçkünlərin qayıtması probleminə nə dərəcədə səmimi münasibət bəsləndiyini, bu problemin Qazaxıstan üçün də nə dərəcədə aktual olduğunu bir daha gördük. Bu təşəbbüsə görə çox təşəkkür edirik. Bu, dostluğun, qardaşlığın, həmrəyliyin təzahürüdür. Əminəm ki, qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyacaq Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi həm də Qazaxıstan-Azərbaycan dostluğu mərkəzi olacaq".

### 1 milyard dollar dəyərində əmtəə dövriyyəsi

**Prezident bildirib ki müzakirələr çərçivəsində əmtəə dövriyyəsinin necə artırılması məsələsinə də toxunulub:** "Fikrimcə, əsas diqqətin nəqliyyat-logistika sahəsi çərçivəsində məhz qarşılıqlı fəaliyyətimizin prioritet istiqamətləri üzərində cəmləşdirilməsi öz növbəsində daha artıq ixrac-idxal əməliyyatları həyata keçirməyə imkan verəcək. Mənim fikrimcə, burada böyük potensial var. Düşünürəm ki, Qazaxıstan Prezidenti bizim hədəflədiyimiz rəqəmi səsləndirdi - 1 milyard dollar dəyərində əmtəə dövriyyəsi. Məncə, hər iki tərəfin qarşılıqlı fəaliyyəti dərinləşdirmək niyyətini nəzərə almaqla, bu, tamamilə realdır".

Dövlət başçısı Qazaxıstan Prezidentinə ölkəmizə səfər etdiyinə, onun tərəfindən, qardaş qazax xalqı tərəfindən gördüyümüz münasibətə görə bir daha təşəkkürünü bildirib: "Kasım-Jomart Kemeleviçə onun bütün təşəbbüslərində öz adımdan və bütün Azərbaycan xalqı adından uğurlar arzulamaq istəyirəm. Mən hələ söhbət zamanı onun həyata keçirdiyi islahatlara, iqtisadi inkişafa yönəlmiş islahatlara, Qazaxıstanın müstəqilliyinin, suverenliyinin möhkəmlənməsinə yönəlmiş addımlara öz münasibətimi bildirmişəm. Biz Azərbaycanda bu islahatları tamamilə dəstəkləyirik və ən başlıcası, onlar Qazaxıstan xalqı tərəfindən dəstəklənir. Xalq görür ki, Prezidentin sözləri ilə işləri bir-birinə zidd deyil, onlar Kasım-Jomart Kemeleviçin Qazaxıstanı daha da inkişaf etdirmək üzrə fəaliyyətinin nəticələrini görürlər. Biz Sizin dostlarınız, qardaşlarınız kimi buna çox şadıq və bütün qardaş Qazaxıstan xalqına bundan sonra da uğurlar, firavanlıq və sülh arzu etmək istəyirik".

Səh. 2

MÜSAHİB



**Azər Hüseynov,**
siyasi ekspert

■ Rusiyanın siyasətində baş verən ziqzaqlar göstərir ki, onların da siyasi mətbəxində hamı eyni cür düşünmür

■ Bizim qarşımızda qeyri-stabil qərar verən, xarici amillərdən asılı olan bir Ermənistan var

■ Azərbaycan Avropada müsəlman dünyasının İsraili olmağa məhkumdur

Səh. 5

GÜNÜN FOTOSU...



Əminə Ərdoğan tarlada pomidor topladı

GÜNÜN SİTATI

"Əlcəzairdən tutmuş Azərbaycana qədər qaz tədarükünün artırılması üçün yeni razılaşmalar imzalamışıq"



**Mario Draqi,**
İtaliyanın Baş naziri

KARİKATURA



Müharibədən əziyyət çəkən uşaqlar

## Özəl məktəblərdə tədris ili avqustdan başlayır

**Ceyhun Məmmədov,**
Milli Məclisin deputatı

Ortaq məxrəcə gələrək, sentyabrın 1-dən yeni dərs ilinə başlaya bilərik.

Səh. 7

STATİSTİKA



■ **2022-ci ilin yanvar-iyul aylarında Azərbaycan əhalisinin banklardakı əmanətlərinin ümumi həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 25,69 faiz artaraq 10,817 milyard manat təşkil edib.**

Ölkə üzrə bank əmanətlərinin 89,1 faizi (9,638 milyard manat) Bakı şəhərinin, 10,9 faizi (1,178 milyard manat) regionların payına düşüb. Eyni zamanda, əmanətlətin 60,11 faizi (6,502 milyard manat) milli valyutada, 39,88 faizi (4,314 milyard manat) xarici valyutada olub. İyulun 31-nə olan vəziyyətə görə, əmanətlərin orta illik dərəcəsi ölkə üzrə 3,29 faiz, Bakı şəhərində 3,14 faiz təşkil edib.



Səh. 7

## Dünyada taxılın qiyməti ilin əvvəli ilə müqayisədə çox bahalaşıb

PREZİDENTİN İŞ GÜNÜ

# Prezidentə "Qızıl qartal" ali ordeni təqdim edilib



**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" - "Qızıl qartal" ali ordeni təqdim olunub.**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxış edərək bildirib ki, Qazaxıstanda Azərbaycan Prezidentini görkəmli dövlət xadimi, bütün dünyada Azərbaycanı tarixi Zəfərə, Təhlükəsizlik Şurasının qətnamələrinə tam müvafiq olaraq ərazi bütövlüyünün bərpa edilməsinə gətirib çıxarmış şəxsiyyət kimi tanıyır, ehtiram bəsləyir, hörmət edirlər: "Bu münasibətlə Sizi bu gün şəxsi görüşümüz zamanı təbrik etmişəm. Siz dövlətlərimiz arasında çoxtərəfli, çoxşaxəli əməkdaşlığın inkişafına böyük töhfə verirsiniz. Bütün qazax xalqı adından ehtiram əlaməti olaraq bu gün Sizə "Altın kıran" ordenini təqdim etmək istərdim".

Ali mükafata görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürünü bildirən Prezident İlham Əliyev isə bildirdi ki, bizim xalqlarımızı ortaq tarix, ortaq köklər bağlayır. Bu gün Qazaxıstan və Azərbaycan müstəqillik yolunda inamla irəliləyən iki müstəqil dövlət kimi iqtisadiyyatın inkişafında, sosial məsələlərin həllində yüksək sürət nümayiş etdirir, dünya arenasında ölkələrimizin nüfuzu artır: "Mən bu mükafatı bütün Azərbaycan xalqına hörmət əlaməti hesab edirəm. Bu mükafatı Siz təqdim etdiyinizə görə xüsusi qürur duyuram. Sizin qeyd etdiyiniz kimi, bu gün biz, ikitərəfli gündəliyin bir çox məsələlərinə və beynəlxalq inkişaf məsələlərinə dair ətraflı söhbət etdik. Mən artıq demişəm, bir daha təsdiqləmək istəyirəm ki, Sizin yürütdüyünüz islahatlar kursunu tamamilə dəstəkləyirik. Sizin yürütdüyünüz siyasət Qazaxıstanın, Qazaxıstan xalqının milli mənafelərinə tamamilə uyğundur. Artıq qazanılmış uğurlar Sizin seçdiyiniz kursun düzgün olmasına dəlalət edir.

Qazaxıstan xalqının bu kursu dəstəkləməsi bir daha onu göstərir ki, bizə qardaş olan Qazaxıstan düzgün yolla gedir. Əminəm ki, Siz qarşıya qoyduğunuz bütün hədəflərə çatacaqsınız. Lakin bu yüksək mükafat mənim əlbəttə ki, münasibətlərimizin möhkəmləndirilməsi yolunda bundan sonrakı fəaliyyətimdə üzərimə vəzifələr qoyur. Əmin ola bilərsiniz ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq".

# İlham Əliyev Zelenskiyə məktub göndərdi



**Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenskiyə təbrik məktubu ünvanlayıb. Məktubun mətnində deyilir:**

"Hörmətli cənab Prezident,

Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımızı birləşdirən çoxəsrlik möhkəm dostluq və qarşılıqlı rəğbət hissləri dövlətlərarası əlaqələrimizi və əməkdaşlığımızı şərtləndirən başlıca amillərdəndir. Diplomatik münasibətlərimizin qurulduğu ötən otuz illik dövr ərzində qarşılıqlı faydalı əməkdaşlığımızın dinamik və ardıcıl inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluq doğurur. Cari ilin yanvarında Ukraynaya etdiyim işgüzar səfəri, Sizinlə görüşümüzü və apardığımız danışıqları xoş təəssüratlarla xatırlayır, bu səfəri ölkələrimiz arasında əlaqələrin genişlənməsi baxımından əhəmiyyətli hesab edirəm. Beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini rəhbər tutaraq Azərbaycan bütün dövlətlərin, o cümlədən Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır. Biz Ukrayna xalqına humanitar məsələlərdə bundan sonra da yardım göstərməyə davam edəcəyik.

Əminəm ki, Azərbaycan ilə Ukrayna arasındakı ənənəvi dostluq münasibətləri, səmərəli əməkdaşlığımız xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcəkdir. Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Dünyaya örnək - Birinci Xanım

***Azərbaycanın dövlətçilik tarixinin müəyyən kəsimlərində hər zaman örnək aldığımız, fəaliyyətləri ilə nəsillərə nümunə olan qadınlarımız olub. Avqustun 26-da doğum gününü qeyd edəcəyimiz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidentləri, UNESCO və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva ictimai-siyasi fəaliyyəti, malik olduğu şəxsi keyfiyyətləri ilə təkcə Azərbaycan qadınları üçün deyil, həm də bütün dünya üçün örnək olan şəxsiyyətdir.***



## Təhlil

Azərbaycan cəmiyyətində Mehriban xanıma olan sonsuz sevgi və hörmətin əsas qaynağı onun xalqımızın mənəvi dəyərlərinə bağlılığı, yüksək insani keyfiyyətləri, vətəndaş mövqeyi, intellekti və vətənpərvərliyi, ölkəmizdə humanizm simvoluna çevrilməsidir. Fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir.

Mehriban Əliyevanın ictimai fəaliyyəti geniş və çoxşaxəlidir. Ümummilli Liderin adını daşıyan Heydər Əliyev Fondunun fəaliyyətini xatırlatmaq kifayətdir. Birinci vitse-prezidentin rəhbəri olduğu bu Fond həm ölkə miqyasında, həm də qlobal səviyyədə mədəni, təhsil, sosial, ekoloji və s. sahələrdə genişmiqyaslı layihələr həyata keçirir. Mehriban xanımın birbaşa diqqət və qayğısı ilə reallaşdırılan çoxsaylı xeyriyyə aksiyaları Azərbaycan adının dünyada tanıdılmasında müstəsna rol oynayır. Fond əhalinin, xüsusilə həssas kateqoriyasına aid edilən vətəndaşların, valideyn himayəsindən məhrum olmuş, xüsusi qayğıya ciddi ehtiyac duyan uşaqların himayə edilməsi, problemlərinin həlli, onların cəmiyyətimiz üçün layiqli vətəndaş olaraq yetişdirilməsi istiqamətində rəğbətlə qarşılanan addımlar atır.

Hər bir dövləti dünyada tanıdan başlıca amil milli-mədəni, tarixi dəyərləri, ənənələridir. Bu ənənələrin davamlı olaraq yaşaması, araşdırılması, daha da zənginləşdirilməsi üçün gənc nəsillərə ötürülməsi, gənclərimizin öz köklərinə, adət-ənənələrinə, mədəniyyətlərinə və dəyərlərinə bağlılıqla yetişdirilməsi xüsusilə zəruridir.

Mehriban xanım ölkəmizin milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərlər, sahib olduğumuz tolerantlıq mühitinin gənc nəsillərə ötürülməsi istiqamətində birinci xanımın təşəbbüsü ilə çoxsaylı layihələr, tədbirlər, forumlar təşkil olunur. Mədəniyyətimizin inkişafı, muğamın, milli musiqimizin dünyada təbliği, gənc istedadların dəstəklənməsi, tarixi-mədəni-mənəvi irsimizin qorunması istiqamətində aparılan dövlət siyasəti birbaşa olaraq Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

Mehbiran xanımın ölkəmizdə idmanın inkişafı istiqamətində əvəzsiz xidmətləri var. Gənc nəslin sağlam ruhda böyüməsi, ölkəmizin beynəlxalq idman arenalarında layiq olduğu səviyyədə təmsil edilməsi məhz bu siyasətin nəticəsidir. Prezident İlham Əliyev və Mehriban xanımın birlikdə həyata keçirdikləri bu böyük, çoxşaxəli və milli maraqlarımıza əsaslanan siyasətin ən böyük bəhrəsi isə 30 illik işğala son qoyan tarixi Zəfərimiz oldu.

Uzun illər ərzində planlı və ardıcıl olaraq həyata keçirilən siyasət nəticəsində Vətənə sevgi ilə böyüyən gənclərimiz, rəşadətli Ordumuz müzəffər Ali Baş Komandanın rəhbərliyi altında son 200 ildə ilk dəfə olaraq itirilən torpaqlarımızı qanı, canı bahasına geri qaytardı. Ərazi bütövlüyümüz, milyonlarla soydaşımızın pozulmuş hüquqları bərpa edildi. Biz dövlət və xalq olaraq hələ də işğalın acı nəticələri, açılan yaraların sağalması üçün çalışırıq.

Mehriban xanımın təşəbbüsü ilə şəhid ailələri, qazilərimiz xüsusi diqqət və qayğı ilə əhatə olunub. Qələbəmizin əldə olunmasında sağlamlıqlarını itirmiş qazilərimizin müasir ortez-protezlərlə təmin edilməsi, onların müalicəsinin təşkili, sosial qayğılarının aradan qaldırılması Birinci vitse-prezidentin daim diqqət mərkəzindədir. Mehriban xanım mütəmadi olaraq qəhrəman Şəhidlərimizin ailələri ilə görüşür, onları narahat edən məsələlərlə maraqlanır. Ali Baş Komandan İlham Əliyev və Mehriban xanımın bu davranışları, əslində, hər birimiz üçün nümunədir. Şəhid ailələrinə, qazilərimizə davranışın necə olmalı olduğunun bariz örnəyidir.

Mehriban xanımın təşəbbüsü ilə işğaldan azad edilən ərazilərimizdə erməni vandalları tərəfindən dağıdılmış yüzlərlə tarixi-mədəni abidələrmiz, məscidlərimiz, kilsələrimiz bərpa edilir. Mədəniyyət paytaxtımız olan Şuşa özünün keçmiş tarixi əzəmətinə qovuşur. Burada Xarıbülbül, Vaqif poeziya günləri təşkil edilir.

Dövlət və xalq olaraq qarşıda bizi həllini gözləyən, bir olduğumuzu, həmrəy olduğumuzu tələb edən hələ çox çağırışlar var. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət, Mehriban xanım Əliyevanın çoxşaxəli ictimai-siyasi fəaliyyəti ilə bu çağırışlara da layiqli cavab verəcəyimizi, bizi gözləyən sınaqlardan uğurla çıxacağımıza hər bir Azərbaycan vətəndaşında böyük inam var.

✍ *Azad Əliyev*

# Qazaxıstan ilə əməkdaşlıqda yeni mərhələ



◂ əvvəli 1-ci səhifədə

### Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi

Daha sonra çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə vurğulayıb ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq ərazi bütövlüyünü Zəfərlə bərpa edən Azərbaycan öz inkişafının yeni dövrünə qədəm qoyub və bu işdə, əlbəttə ki, Azərbaycanın milli lideri, bizim qardaş ölkənin Prezidenti İlham Heydər oğlu Əliyevin çox böyük şəxsi xidmətləri var: "Fürsətdən istifadə edib bir daha qeyd etmək istərdim ki, Azərbaycan bu gün Sizin güclü rəhbərliyinizlə öz inkişafında nəzərəçarpacaq nəticələrə nail olur, biz Sizin ölkənizdə bu tendensiyaları müşahidə edir və buna ürəkdən sevinirik.

Biz, həmçinin Qarabağın və Şərqi Zəngəzurun necə dinamik dirçəldildiyini görürük. Sizin şəxsi səyləriniz sayəsində yaxın gələcəkdə bu region çiçəklənən diyara çevriləcək, buna heç bir şübhə yoxdur. Qazaxıstan öz tərəfindən bu nəcib işə əlindən gələn töhfəni verməyə hazırdır. Bu gün bizim hədiyyəmizin təqdimatı keçirildi, qazax xalqı adından burada, - Füzuli şəhərini nəzərdə tuturam, - gələn ilin sonunadək Kurmanqazı adına incəsənət məktəbi tikiləcək.

Bu obyektin inşası Qazaxıstanın aparıcı "BI" tikinti şirkətinə həvalə edilib. Bu gün o, zəmanət verdi ki, məktəb elan edilmiş müddətdə hazır olacaq və əlbəttə, keyfiyyət təmin ediləcək. Buna heç bir şübhə yoxdur, çünki şirkət kifayət qədər məsuliyyətlidir. Bu da əlamətdardır ki, mənim səfərim yubiley tarixinə - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsinə təsadüf edir, üç gündən sonra biz bu tarixi qeyd edəcəyik. Demək lazımdır ki, mən ümumiyyətlə xidməti vəzifələrimlə əlaqədar ölkələrimiz arasında əməkdaşlığın inkişafı prosesində lap əvvəldən iştirak edirəm, biz kifayət qədər böyük yol keçmişik. Sıfırdan başlamışıq və bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik barədə tam əsasla danışırıq. Bu əməkdaşlığın genişləndirilməsi, şaxələndirilməsi barədə Bəyannamə imzalanıb. Bu, irəliyə doğru real addımdır.

Bizim aramızda etimada əsaslanan siyasi dialoq qurulub, dövlətlərimiz beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında əməkdaşlıq edirlər.

Hörmətli İlham Heydər oğlu, əlbəttə ki, mən fürsətdən istifadə edərək, Sizə Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri müşavirəsinin çağırılması barədə Qazaxıstanın təşəbbüsünü dəyişməz olaraq dəstəklədiyinizə görə təşəkkürümü bildirmək istərdim. Bu il oktyabrın ortalarında bizim paytaxtımızda Zirvə görüşü təşkil olunacaq və biz, əlbəttə ki, bu, çox mühüm forumda Sizin şəxsən iştirakınızı səbirsizliklə gözləyirik. Sizin bu forumda iştirakınız istənilən nəticə əldə etmək baxımından çox müsbət təsirə malik olacaq".

✍ *Azad Əliyev*

**Aydın Hüseynov, Milli Məclisin deputatı:**



- Azərbaycanla Qazaxıstan arasında iqtisadi əlaqələr sürətlə və səmərəli inkişaf edir. Buna iki ölkə arasında yaradılmış işgüzar şura da kömək göstərir. Şuraya həm Qazaxıstan, həm də Azərbaycan tərəfindən 24 şirkət daxildir. Əminik ki, gələcək inkişaf və şuranın tərkibinin genişlənməsi ikitərəfli ticari-iqtisadi münasibətlərin inkişafına daha da kömək göstərəcək. Qazaxıstanla Azərbaycanın ticari-iqtisadi əlaqələrinin perspektivləri böyükdür və inkişaf üçün böyük potensial var. Perspektivlərin logistika, enerj, tikinti sahələrində daha geniş gözlntiləri var. Bu əlaqələrin bir hissəsi artıq var.

Gələcəkdə digər sahələr, o cümlədən maliyyə sahəsi də nəzərdən keçirilə bilər. Bu gün Azərbaycanda sənaye zonaları inkişaf edir. Sahibkarlara geniş imkanlar yaradılır. Şirkətlərin sahibkarlıq fəaliyyətində dövlətin özü də maraqlıdır və bununla bağlı geniş yol xəritələri mövcuddur, müxtəlif layihələr hazırlanıb və onların həyata keçirilməsi üçün məhz yerli sahibkarların potensialından istifadə etmək nəzərdə tutulub.

Azərbaycan iqtisadiyyatının dünyanın bir parçası olduğunu nəzərə alsaq xarici investorların ölkəmizdə geniş fəaliyyət göstərməsini də normal qəbul etməliyik və onların fəaliyyətinə yaşıl işıq yandırmalıyıq. Qeyd edək ki, bu məsələ artıq Azərbaycanda həll olunub, yerli sahibkarlarla yanaşı, xarici investorlar da ölkəmizin iqtisadi inkişafında, bizves strukturunda yaxından, həm sə səmərəli iştirak edirlər.

**Vüqar Bayramov, millət vəkili:**



- Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlıq potensialı kifayət qədər yüksək qiymətləndirilir. Əməkdaşlığın dərinləşməsi özünü ticarət dövriyyəsində də əks etdirməkdidr. Belə ki, 2020-ci ildə ölkələr arasında dövriyyə 25.9 milyon dollar olmuşdursa ötən il qarşılıqlı ticarət 135 milyon 799 min dolladək yüksəlib.

Bu ilin ilk yarısında isə iki ölkə arasında ticarət dövriyyəsi 326 milyon 673 min dollar olub. Göründüyü kimi, iki Türk dövləti arasında xarici ticarət dövriyyəsində son il yarımda kəskin artımlar qeydə alınıb. Qazaxıstan Prezidentinin Azərbaycana səfərindən sonra tərəflərin qeyri-neft sektorunda, o cümlədən nəqliyyat və kommunikasiya sahələrində daha geniş əməkdaşlıq edəcəyi gözlənilir. Tərəflər eyni zamanda humanitar və eləcə də təhsil sahəsində əməkdaşlığı gücləndirirlər. Qazaxıstan şirkətləri işğaldan azad olunan ərazilərimizdə də sərmayə qoyluşunda maraqlıdırlar.

Artıq 65-dən çox Qazaxıstan şirkətinin müraciəti də məhz bu istəyi bir daha təsdiq edir. Türk dünyası daha da sıx əməkdaşlıq mərhələsinə qədəm qoyur. Etiraf etmək lazımdır ki, Türk dövlətləri arasındakı əməkdaşlığın güclənməsində Azərbaycanın xüsusi rolu var. Azərbaycan Prezidentinin Özbəkistana səfəri və daha sonra Qazaxıstan rəhbərinin ölkəmizə gəlməsi və liderlər arasındakı telefon danışıqları da Türk dünyasında əməkdaşlıq üçün mövcud imkanlardan daha geniş istifadə olunacağından xəbər verir.

# Biz Laçına qayıdırıq...

***Azərbaycanın strateji məkanlarından olan Laçın şəhərinin, kəndlərinin işğalçı ermənilərdən təmizlənməsi prosesi postmüharibə dövrünün ən mühüm mərhələsi olaraq bitmək üzrədir. Azərbaycan ictimaiyyəti Laçın şəhərinin, onun kəndlərinin Azərbaycanın nəzarətinə keçməsini dövlət sərhəd təhlükəsizliyimizin təminatı, daha sonra Xankəndinin tam nəzarətə alınması, bütövlüyümüz istiqamətində həyata keçirilən ən mühüm tarixi hadisə kimi dəyərləndirir. Laçınlılar öz şəhərlərinin, kəndlərinin Azərbaycanın nəzarətə keçməsini, ermənilərin, sülhməramlıların ərazilərimizi tərk edəndən sonra bu yurdun azad nəfəs alacağı günü səbirsizliklə gözləyirlər.***



## Sorğu

**■ Qəzənfər Hüseyn, Laçın şəhər icra başçısının keçmiş birinci müavini:**

- Azərbaycan Dövlətinin Laçın şəhərinə, kəndlərinə tam nəzarəti əlinə alması ilə bağlı yayılan məlumatlar, hər

*Laçınlılar öz doğma yurdlarına qayıtmağı səbirsizliklə gözləyirlər*

bir laçınlı kimi, məni də qürrələndirir, sevindirir. Otuzillik işğal dövründə hər gün bu barədə düşünürdüm. İnanırdım ki, Qarabağ, Laçın azad olunacaq və bu fikirlərimi sosial şəbəkədə bölüşürdüm. İndi bir çox gənclərimiz deyirlər ki, siz bu inam hissini gənclərə aşıladınız və biz Laçının azad olunacağına inanaraq yaşadıq.

Bu sevinci bizə yaşatdıqlarına görə, qəhrəman Şəhidlərimizə, qəhrəman Qazilərimizə borcluyuq. Allah Şəhidlərimizə rəhmət eləsin, Qazilərimizə cansağlığı versin. Sözsüz ki, bu qələbəni bizə daddıran qətiyyətli, müzəffər Ali



Baş Komandanımız oldu. Müzəffər Ordumuz, müzəffər Ali Baş Komandanın rəhbərliyi altında düşmənə sarsıdıcı zərbələr endirdik.

Biz elə bir tayfa ilə qonşu olmuşuq ki, revanşist, işğalçı siyasəti ilə bölgədə daim narahatlıq, müharibələr yaradıb. Tək yaxın 30 il ərzində bu mənfur qonşuların Azərbaycanda törətdiyi cinayətləri heç kəs unutmamalıdır. Azərbaycan insanları, gənclərimiz ötənlərdən nəticə çıxararaq bu millətlə ehtiyatlı, ağıllı davranmalıdır. Atalarımız bu qonşuya münasibətdə humanistcəsinə davranmaqla çox səhvlər edib.

Allaha çox şükürlər olsun, Laçın azaddır və Azərbaycanın tam nəzarətinə keçir. Onu deməliyəm ki, laçınlılar öz doğma yurdlarına qayıtmağı səbirsizliklə gözləyirlər. Laçınlılar öz yurdlarına gedib uçuq-sökük evlərində yaşaya-yaşaya, dövlətin də dəstəyi ilə kəndlərini, şəhərlərini bərpa edəcəklər. Yəqin ki, dövlətimiz müəyyən təhlükəsizlik tədbirləri görəndən sonra bərpa işlərinə başlanacaq. Bu prosesdə insanlarımızın üzərinə böyük iş düşür.

Bərpa işi elə getməlidir ki, təbiətə zərər vurulmasın. Laçını flora-faunası qorunmaqla təbii muzey halına salmaq olar. Turizmin inkişafı, faydalı qazıntılardan istifadə mütləqdir.

Kəndlər, şəhərlər salınarkən orada yaşayan əhalinin qonşuluq, qohumluq ənənələrinə əməl edilməlidir. Vaxtilə qonşu olan ailələr yeni evlərin bərpasından sonra da qonşu olsunlar.

Laçın şəhərində yeni qəsəbələr salmaq mümkün deyil. Şəhərimizin relyefi fərqlidir. Şəhərlərin salınması, inkişafı şimal-qərb, yəni Kəlbəcər istiqamətində aparılmalıdır. O istiqamətlərdə boş yerlər var. Laçın şəhərində çoxmərtəbəli evlər tikmək mümkün deyil. Bizim dövrlərdə 3-4 mərtəbəli evlər var idi. Çoxu salamatdır, yenə də tikib insanlarımzı ora məskunlaşdırmaq mümkündür.

İndi Zabux camaatı köçəcək, çünki orada hazır evlər var. Ermənilər Sus kəndini tamamilə dağıdıblar.

Mollalar, Qızılca, Avazlar kəndləri də dağıdılıb. Ermənilər Zabuxda kənd qəbiristanlığını dağıdıb üstündə qəsəbə salıblar. Bərpa prosesində, yəqin ki, bu məsələyə diqqət çəkiləcək. İnsanlarımız öz yurduna köçəndən sonra həyat öz axarına düşəcək. Çətini köçün başlanmasıdır...

Otuzillik ayrılıq insanlarımızda yeni baxış formalaşdırıb - daha yaxşı yaşamaq, öz torpağında daha güclü kök salmaq arzusundadırlar. Ona görə də insanlarımız, elin sözü ilə desək, Laçında köçlü-köməçli məskunlaşacaqlar.

**■ Babək Asalanov, Qarabağ qazisi, Müharibə Veteranları Təşkilatının sədri:**

- Laçınlılar - keçmiş məcburi köçkünlər - torpaqlarımız işğaldan azad olunandan sonra mütləq mənada o torpaqlara qayıtmalıdır.

*Sentyabr ayından Zabux, Sus, kəndlərinə, eyni zamanda Laçın şəhərinin özünə qayıdışlar olacaq*

İndi şükürlər olsun, sentyabr ayından Zabux, Sus, kəndlərinə, eyni zamanda Laçın şəhərinin özünə qayıdışlar olacaq. Biz o torpaqlar üçün qan tökmüşük, Şəhidlər vermişik. Mən I Qarabağ müharibəsinin iştirakçısıyam. 44 günlük Vətən Müharibəsinin iştirakçısı olmuşam. Laçına doğru Güləbirddən tutmuş, Türklər, Səfiyan, Fərəcan, Xanallar, Suarası kəndlərindək II Vətən Müharibəsində döyüşlərdə iştirak elədik. Düşmən kapitulyasiya aktına imza ataraq, təslim oldu.

Döyüşlər dayandı və təxris olunduq. Biz - 30 nəfərdən ibarət keçmiş döyüşçülər - ora kəşfiyyatçı-bələdçi kimi getmişdik. O yerləri yaxşı tanıdığımızdan Vətən Müharibəsində iştirak etdik. Üç minədək döyüşçümüz Vətən uğrunda Şəhid oldu.

On mindən artıq qazimiz var. Bu, boş yerə olmadı, torpaqlar işğaldan azad edilib. Hər bir məcburi köçkünün borcudur ki, qayıdıb işğaldan azad olunmuş ərazilərdə yaşasın. İnşAllah, bu qayıdışa hazırlaşırıq.

Biz Laçın şəhərindənik. Ora qayıdıb yaşayışımızı davam etdirəcəyik. Rayonumuzu daha da inkişaf etdirəcəyik. Bütün dünya görməlidir ki, 1992-1993-cü illərdə işğala məruz qalmış rayonlarımızın əhalisi çox ürəklə torpaqlara qayıdır. Torpaqlar cənab Prezidentimiz başda olmaqla, ordumuzun gücü, qüdrəti, şəhidlərimizin qanı bahasına işğaldan azad olunub. Biz Qafqazda göstərdik ki, həqiqətən güclüyük, ordumuz güclüdür. İllərlə həsrətində olduğumuz torpaqlar 44 gün müddətinə ordumuzun gücü ilə düşmən tapdağından azad olundu. Sevincimizin həddi-hüdudu yoxdur. Biz o torpaqlara qayıdırıq....

**■ Ərşad Hüseynov, Qarabağ müharibəsi qazisi:**

- Möhtəşəm bir tarixi hadisəni yaşayırıq. Laçın şəhərindən yan keçən

*Bundan sonra Laçın şəhərinin bərpası, yenidənqurulması sürətlə davam etdiriləcək*

yol artıq hazırdır, istifadəyə verilib. Laçın şəhərinin tam azad olunmasına saylı günlər qalıb. Yəqin ki, bir-iki günə ermənilər ərazimizi tərk edəcəklər. Laçın paralel olaraq sülhməramlıların nəzarətindən çıxacaq. Bundan sonra nəzarət Azərbaycan Ordusuna keçəcək. Tək Laçın şəhəri yox, Sus, Zabux və digər ətraf ərazilər Azərbaycan Ordusunun nəzarətinə keçməlidir.

Bundan sonra Laçın şəhərinin bərpası, yenidənqurulması sürətlə davam etdiriləcək. İnfrastruktur bərpa olunacaq. İnsanların köçürülməsi və digər təsərrüfat fəaliyyətinin inkişafı istiqamətində addımlar atılacaq...

Xalqımız 30 ilə yaxın idi ki, yurdunun azadlığını həsrətlə gözləyirdi. Ona görə də hər kəsin ürəyi Qarabağla, Zəngəzurla döyünür. Hamı gözləyir ki, orada həyat bərpa edilsin, ölkəmizin təsərrüfat bölgəsinə qoşulsun. Həsrət bitsin və gəlib bu yurdlarda yaşayaq.

Hazırda mən də Laçındayam. Burada təsərrüfatla məşğul olan xeyli insan var, ordumuz var.

Ordumuz yüksək əhval-ruhiyyədədir. Laçın camaatının bu yerlərə qayıtmasını ən çox istəyən Azərbaycan Ordusudur. Azərbaycan Ordusu yüksək dağlarda xidmət edir. Ordunun bu əziyyətə dözməsinin qarşılığı olaraq Laçında yüksək inkişafa nail olmalıyıq ki, ölkəmiz qüdrətlənsin, çiçəklənsin. Çox böyük ümidlərimiz var. Laçın Azərbaycanın strateji rayonlarından biridir. Şərqi Zəngəzurun coğrafi mərkəzidir. Bir laçınlı kimi yox, Azərbaycan vətəndaşı kimi düşünürəm ki, Laçın qısa müddətdə möhtəşəm şəkildə bərpa olunmalıdır. Laçında elə şərait yaradılmalıdır ki, heç kəs cəsarət edib Laçına doğru xain baxmasın. Bizim arzumuz budur. Belə də olacaq. Laçının bərpası və yenidənqurulması ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında mühüm rol oynayır. Yeni inşa olunmuş yol Qarabağ iqtisadi rayonunu Qərbi Zəngəzurla birəşdirir. Yolun Laçın rayon ərazisinə 7-8 kilometrlik hissəsi düşür. Həmin hissədən kənarda olan ərazi, artıq tam nəzarətə keçəcək. Bütün işlər lazımi səviyyədə görüləcək, möhtəşəm inkişaf prosesi başlanacaq".

**■ Rafiq Nağıyev, 1991-ci ildə Laçında yaradılan ərazi özünümüdafiə batalyonunun keçmiş qərargah rəisi:**

- Müharibə başlamamışdan əvvəl həmişə əmin idim ki, torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik. Bütün

*Müharibə başlamamışdan əvvəl həmişə əmin idim ki, torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik*

çıxışlarımda bildirmişəm ki, o torpaqlara qayıdacağıq. Heç vaxt razı olmamışam ki, o torpaqlara danışıqlar yolu ilə qayıdaq. Hesab etmişəm ki, torpaq uğrunda canını, qanını verən igid oğulların qanı elə müharibə yolu ilə də alınmalıdır. Şükürlər olsun, bu şərəfli yolla torpaqlarımızı qaytardıq.

Müharibəyə bir həftə qalmış sosial şəbəkədə döyüş yoldaşlarıma çağırış etmişdim. Köhnə döyüşçüləri müharibəyə hazır olmağa səsləmişdim.

Sentyabrın 27-si günü, səhər saat 6-ya 15 dəqiqə işləmiş Tərtərdə olan balaca qardaşım mənə yazdı ki, başladı. Əmin oldum ki, bu müharibədir... Bütün günü sevincimin həddi-hüdudu yox idi. Məni qınayan da oldu ki, müharibəyə niyə belə sevinirsiniz? Düzdür, müharibə ölümdür, itkidir, ağrıdır, dəhşətdir, acıdır. Bunu öz üzərimdə hiss etmişəm. Müharibə torpaqların azad edilməsinin ən şərəfli yoludur. ...Səhər mən, Qarabağ döyüşçüləri Babək Aslanov, Abbasov Çingizlə birlikdə Hərbi Komissarlığa getdik, könüllü olaraq müharibəyə getmək istədiyimizi bildirdik. Oradan bildirdilər ki, artıq 70 nəfər laçınlı yazılıb, biz də adımızı yazdırdıq. Müharibə dövründə könüllü müharibəyə getmək istəyənlərin ən çoxu Laçın rayonundandır. Şahidi oldum ki, insanlar müharibə getmək üçün az qala, bir-birləri ilə yumruqlaşmağa hazır idilər. Yəni birini yaşına görə aparmaq istəmirlər, o da narazılıq edib getmək istədiyini deyirdi...

Müharibə başlayanda könüllü olaraq getmək istəyirdik. Avtobuslar hazır olub yola çıxanda məni buraxmaq istəmədilər. Dedilər ki, sənin yaşın keçib, gedə bilmərsən. Buna baxmayaraq Laçının köhnə döyüşçüləri 30 nəfər könüllü döyüşə getdi və sonadək döyüşdü. Laçına, Şuşa sərhədinə qədər getdilər və 10 Noyabr Bəyannaməsindən sonra geri qayıtdılar. Hazırda "Qaçkınkom"da Laçında yaşamaq istəyənlərin siyahısı tutulur. Çox sevindiricidir ki, orada da növbədir. Getmək istəyənin sayı həddən artıqdır. Onlar heç fikirləşmirlər ki, Laçında yaşamaq üçün şərait varmı, yoxmu? Bütün çətinliklərə baxmayaraq, laçınlılar Laçına getmək istəyirlər.

Mən də artıq müraciət eləmişəm. Ailə üzvlərimizin sayını yazmışam. Bütün Azərbaycan sevinir. Sosial şəbəkələrdə Laçının bütün kəndlərinin adı sadalanır. Allaha çox şükür, Laçına qayıdırıq. Ötən il sentyabr ayında kəndimizə getmişdim. Əvvəl elə bilirdim, Laçın bizdən küsüb. Gördüm ki, dağların, daşların üzü gülür. Bizi səbirsizliklə gözləyirlər. Allah Ordumuza dəyməsin. Allah Şəhidlərimizə min rəhmət eləsin. Onların saysində torpaqlarımıza qayıdırıq...

***✍ Tahirə Qafarlı***



**Flora Qasımova,**
sabiq deputat

# "Anam Zabuxda müəllim işləyib, yəqin, ruhu şaddır..."

***"Azərbaycanın indiki və qədim ərazilərinin, xüsusən də işğaldan azad olunmuş torpaqlarımızın hər qarışı, o cümlədən doğulduğum Xankəndi bizim üçün əzizdir. Bu günlərdə rayon mərkəzi, eləcə də Zabux və Sus kəndləri birbaşa dövlətimizin, ordumuzun nəzarətinə keçməkdə olan Laçın rayonunun da qəlbimdə, taleyimdə xüsusi yeri var". Bunu hafta.az-a açıqlamasında şəhid Milli Qəhrəman Şirin Mirzəyevin xanımı, sabiq deputat Flora xanım Qasımova söyləyib.***

"Ana tərəfdən ulu babam - XIX əsrin sonu XX əsrin əvvəllərində Zəngəzurun, Qarabağın, Şuşanın tanınmış din xadimi, ruhanilərindən olmuş Hacı Axund Molla Şükür Laçın rayonunun Ağanus kəndində doğulub, uşaqlığı o kənddə keçib. Odur ki, anamın atası Mirzə Məhəmmədin də əsli həmin kənddən olub... Tale elə gətirib ki, anam Tahirə Məhərrəmova II Dünya savaşının bitməkdə olduğu dövrlərdə, təxminən 1945-ci ildə Ağdam pedaqoji texnikumunu bitirdikdən sonra təyinatla Laçının Zabux kəndinə göndərilib və orada müəllim işləyərək o iqtisadi-sosial baxımdan ağır illərdə o dağlarda böyüyən Azərbaycan övladlarının təlim-tərbiyəsi ilə məşğul olub...

Rəhmətlik ömrünün sonlarına qədər, xüsusən də işğal dövründə Laçının, Zabux kəndinin əsrarəngiz mənzərələrindən, havasının, suyunun təmizliyindən, qızıl balıqların oynaşdığı şır-şır axan Zabux çayının gözəlliyindən söhbət edərdi", - açıqlamasının davamında bunları söyləyən sabiq parlament üzvü Laçın camaatına xoş arzularını çatdırıb, dövlət və ordu rəhbərliyinə, hərbçilərimizə təşəkkürünü ifadə edib.

"Laçınlıların gözü bir daha aydın olsun! Bu günlərdə rayonun mərkəzi, həmçinin Zabux, Sus və s. kəndləri də birbaşa Azərbaycan dövlətinin, ordusunun nəzarətinə qayıtmalı, o məntəqələrimizdə də Azərbaycan bayrağı ucaldılmalıdır. Bu münasibətlə Azərbaycan xalqını, xüsusən də laçınlıları təbrik edir, inşallah, tezliklə abad, gözəl Laçın torpağında əvvəlkindən də gözəl yaşamlarını bərpa etmələrini diləyirəm... Yəqin ki, müəllim kimi çalışdığı Zabux azad olunduğu üçün anamın da ruhu şaddır... Güman edirəm, ana babalarımın yurdu olmuş Ağanus kəndi, həmçinin Laçının ona qonşu digər kəndləri də ermənilərin oralarda yenidən "dəhliz" qurmaq xülyalarına rəğmən tezliklə Azərbaycan ordusunun nəzarətinə keçəcək və 30 ildən çox didərgin həyatı yaşayan soydaşlarımız tərəfindən daimi məskunlaşdırılacaq...

*Bu günlərdə rayon mərkəzi, eləcə də Zabux və Sus kəndləri birbaşa dövlətimizin, ordumuzun nəzarətinə keçməkdə olan Laçın rayonunun da qəlbimdə, taleyimdə xüsusi yeri var*

Təəssüf ki, bu gün ermənilərin vandal xisləti yenə də özünü büruzə verməkdərdir. Azərbaycan dövləti humanistlik nümayiş etdirərək onlara köçmək üçün 20 gündən çox vaxt verir, bunlar əvəzində Laçında, Zabuxda, Susda və s. evləri uçurur, yandırır, meşələrə od vururlar. Halbuki, 1992-1993-cü illərdə Laçından, Kəlbəcərdən məcburan çıxan soydaşlarımıza bu haylar nəinki bir gün, bir saat belə, vaxt vermirdi. Bu haqda qohumlarımızın danışdıqları 30 ildən çoxdur sinələrimizi göynədir. Bu gün yerli əhalini amansız qətllərlə, işgəncələr, girovluqlar, əsirliklər hesabına didərgin salaraq özgə torpağını illərlə zəbt etdikdən sonra oraları tərk edən erməni arvadları kövrəlirlər. Hələ yenə də yüz illərlə yurd etdiyimiz o torpaqların əsil sahibi olan bizlərin bu müddətdə nələr çəkdiyimizi anlamırlar. Belə xislətlə anlaya da bilməzlər... Hələ bir arsızcasına Azərbaycanı onları "vətənlərindən qaçqın salmaqda" suçlayır, "yenidən geri dönəcəkləri" haqqında ümidlərini ifadə edirlər...

Bu saat bizim artıq qəm-kədərdən deyil, torpaqlarımızın, şəhər və kəndlərimizin yağı düşməndən azad edilməsinə görə sevinc və şadlıqdan kövrəlməyimizə səbəb olan Ali Baş Komandana, ordumuza, onun igid, döyüşkən əsgər, zabit və generallarına təşəkkür edir, qazilərimizə Allahdan cansağlığı, şəhidlərimizə rəhmət diləyirik", - deyə şəhid Milli Qəhrəman xanımı bildirib.

***✍ Sultan Laçın***

# Gənc nəslin mənəvi inkişafı — valideynlər nələrə diqqət yetirməlidir?

## Layihə

***Hər bir ölkənin gələcək inkişafı, tərəqqisi, bütövlüyü böyüməkdə olan uşaqlardan və gənc nəsildən asılıdır. Başqa sözlə, uşaq və gənclərin fiziki və mənəvi inkişafı onların yaşadıqları ölkənin, cəmiyyətin, xalqın inkişafının göstəricisidir. Çünki istənilən uşaq hansı mühitdə böyüyürsə, məhz həmin mühitdə öyrəndiklərini gələcəkdə nümayiş etdirir. Bu baxımdan şəxsiyyətin formalaşdırılmasında təlim-tərbiyənin özünəməxsus rolu var.***



**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən “Dəstək” İctimai Birliyinin sədri, “Dəcəl Balam” Ailə və Uşaq İnkişaf Mərkəzinin direktoru Dilşad Əhədova hesab edir ki, uşaqların mənəvi inkişafı valideynlərin diqqət və qayğısından başlayır:**

“İlk növbədə valideynlər uşaqlarına yetəri qədər zaman ayırmalıdırlar. Çünki uşaqların ehtiyacı olduğu ən böyük hiss sevgi, qayğı və diqqətdir. Bəzən valideynlər elə başa düşür ki, onlar uşaqların bütün ehtiyaclarını ödəyirlər. Məsələn, gözəl geyimlər almaqla, tətilə göndərməklə bunu təmin etmiş olduqlarını düşünürlər. Amma uşaqlar bəzən bu hallardan razı qalmayaraq depressiv vəziyyətə düşə bilirlər. Çünki uşaqların bundan daha çox valideyn qayğısına ehtiyacı var. Təbii ki, hər bir valideyn bunları etməli və uşaqların xüsusilə, təhsilinə diqqət etməlidir, amma bunları öz sevgilərini göstərərək etməlidir. Onlara mütəmadi olaraq vaxt ayırmalıdırlar. İllərdir uşaqlarla işləyən bir şəxs kimi deyə bilərəm ki, bizim hələ uşaqlardan öyrənəcəyimiz çox şeylər var. Müasir dövrə uyğun olaraq uşaqlar daha dərin düşünür, çox tez inkişaf edirlər. Uşaqlar böyüklərdən fərqli olaraq öz haqlarını daha yaxşı tələb etməyi bacarırlar. Uşaqları mənəvi cəhətdən inkişaf etdirmək üçün bir çox yollar var. Valideynlər mütləqdir ki, həftə sonlarını öz uşaqları ilə keçirməlidirlər. Onların istəmədiklərini onlara məcbur etmək düzgün deyil. Onları öz istəklərinə uyğun deyil, uşaqların istəklərinə uyğun və düzgün yöndə istiqamətləndirmək lazımdır, bu daha çox təhsil sahəsində müşahidə olunur ki, bəzən uşaqlar valideyn istəyinə uyğun istiqamətdə təhsilə yönəldilir. Əslində valideynlər çalışmalıdır ki, onları sevdikləri sahəyə yönəltsinlər”.

Mütəxəssis vurğulayıb ki, uşaqlarla ünsiyyət onların mənəvi inkişafı üçün vacib amillərdəndir: “Uşaqlarla ünsiyyət onların mənəvi inkişafı üçün zəruridir. Bu, təməldən olmalıdır. Hər bir ailə süfrə ətrafında bir toplaşılmalıdır və uşaqların maraq dairəsinə uyğun söhbət edilməlidir. Uşağa bir fərd kimi yanaşılmalıdır. Çünki bunların hamısı mənəvi dəyərlədir və bunu insanlarda uşaqkən formalaşdırmaq lazımdır. Valideynlər uşaqlarının ətrafını, kimlərlə dostluq etdiyini bilməlidir. Hər bir valideyn bilməlidir ki, övladının ən yaxın dostu elə özlər olmalıdır. Bütün bunlar uşaqların gəncliyi və gələcəyi üçün önəmlidir. Çünki bəzən gənc yaşlarında belə düzgün ünsiyyət qurmaq bacarığına sahib ola bilmirlər ki, bu da təməldən gələn problemlərdir. Uşaqların mənəviyyatını zənginləşdirmək ilk növbədə sevgi və qayğıdan başlayır. Yəni, uşaqları mənəvi cəhətdən tox böyütmək lazımdır ki, gələcəkdə kamil şəxsiyyət olsunlar. Mənəvi cəhətdən ac olan uşaq gələcəkdə də ciddi problemlər yaşayır”.

*“İlk şərt odur ki, yeniyetmə və gənclərimiz fiziki cəhətdən sağlam olmalıdır*



**Əhməd Qəşəmoğlu,**
sosioloq

D. Əhədova həmçinin vurğulayıb ki, bu gün valideynləri narahat edən məsələlərdən biri uşaqların telefon və planşetlərdən həddindən artıq istifadə etməsidir: “Bilirik ki, internetdə kifayət qədər ziyanlı informasiyalar mövcuddur. Ziyanlı informasiyalar uşaqların mənəvi və fiziki inkişafına çox böyük təsir göstərir. Əgər uşaq ziyanlı informasiyalar eşidirsə, bu o deməkdir ki, onun beyni özündən asılı olmayaraq ancaq ziyanlı tərəfə işləyir. Ona görə də həm valideynlər, həm də məktəb və bağçalar bu istiqamətdə vacib işlər görməlidir.

Uşaqlarımız vətənpərvər ruhda şeirlər, kitablar oxumalıdır. Bunu həm valideynlər, həm də müəllimlər uşaqlara aşılamalıdırlar. Düzdür, indi bütün ailələrdə kompüter, telefon, planşet var, uşaqları bunlardan tamamilə uzaq tutmaq mümkün deyil. Amma uşaqlara əvvəlcədən nəyə baxmağı və nəyə baxmamağı başa salmalıdırlar. Eyni zamanda, valideynlər çalışmalıdır ki, uşaqların sevimli məşğuliyyəti olsun, yaxud övladlarını hər hansı bir maraqlı kursa, idmana göndərsinlər. Uşaqların hobbilərini bilmək və buna uyğun onları yönəltmək lazımdır. Tutaq ki, bir uşaq futbola, voleybola maraqlıdır. Onu həmin idman növləri üzrə məşqə yazdırmaq olar. Bu uşağın ən az 3 saat vaxtını alacaq. Nəticədə uşaq evə yorğun gələcək, ya ümumiyyətlə, telefona baxmayacaq, ya da baxmaq üçün daha az zamanı qalacaq. Yəni, uşaqları bu informasiyalardan qorumaq üçün onları boş qoymaq olmaz. Uşağın günlük bölgüsü olmalı, kitab oxumalı, idman etməli, bir sözlə sağlam ruhda böyüməlidir. Bəzən valideynlər deyirlər ki, mən uşağı müxtəlif fənlərdən kurslara yazdırmışam. Düzdür, kitab oxumaq uşağın mənəvi inkişafında çox böyük rola malikdir. Amma uşağın idmanla məşğul olması onun fiziki inkişafı və sağlamlığı üçün vacibdir.

Onu başa düşmək lazımdır ki, nəinki uşaq, ümumiyyətlə, insan psixologiyası belədir ki, o mütləq fiziki aktivitələrlə məşğul olmalıdır. İnsan hansısa fiziki aktivitə ilə məşğul olanda beyin hüceyrələri açılır və daha yaxşı öyrənir.Valideynlər əmin olsunlar ki, əgər uşaqları hansısa fiziki aktivitə ilə məşğul olsalar, onda dərsi də daha yaxşı qavrayacaqlar”.

**■ Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlu bizimlə söhbət zamanı qeyd edib ki, bu gün yeni nəslin daha arzuolunan şəkildə formalaşmasına yardım etmək imkanlarımız kifayət qədər genişdir. Amma bu məsələdə davamlı iş aparılmalıdır:** “Mən bunu bir neçə dəfə də vurğulamışam. Bu istiqamətdə araşdırmalarım da var və 2 il əvvəl ”Ömrün uğurlu bünövrəsi” adlı kitabım da çap olunub. Kitabda 6 yaşadək uşaqların necə tərbiyə olunması barədə yazılıb. Hazırda yeni kitab üzərində işləyirəm. Həmin kitabın mövzusu isə yeni nəslin keyfiyyətinin arzuolunan şəkildə olub-olması ilə bağlıdır. Bunun üçün üç əsas şərt ödənməlidir. İlk şərt odur ki, yeniyetmə və gənclərimiz fiziki cəhətdən sağlam olmalıdır. Təəssüf ki, bununla bağlı problemlər mövcuddur. Bu problemlərin bir qismi maddi vəziyyətdən, digər qismi gənclərin davranışından, sağlamlıq mədəniyyətindən, öz sağlamlıqlarını necə qorumasından, bu sahədəki təcrübələrindən asılıdır. Təəssüf ki, bu sahədə nə valideynlər övladlarını lazımi şəkildə maarifləndirə, öyrədə bilir, nə də təhsil sistemi buna önəm verir.

Avropa, şərq ölkələrində buna daha çox önəm verirlər. Məktəblərində aşağı sinifdən sağlamlıq, qida mədəniyyəti ilə bağlı kifayət qədər bilik və təcrübələr verilir. Amma bizim gənclərdə bu barədə təsəvvür yoxdur. Məsələn, hansı yeməyi olar, hansı yemək fiziki sağlamlığa ziyandır kimi məqamlarla bağlı iş getmir. İkincisi, bizim gənclərin mənəvi zənginliyinə diqqət ayrılmır. Mənəvi zənginliyin olması üçün insan savadlı olmalıdır. Savad mənəvi zənginlik baxımından çox böyük rol oynayır. Bu gün bu məsələyə diqqət etmirik. İnsanlarımız öz tarixini yaxşı bilmir. Üçüncü şərt də odur ki, bizim yeni nəsildə əməyə yaradıcı münasibət tələbatı üzərində çalışmalıyıq. İnsanlar nə qədər əmək sərf edirlərsə, harada iş görürlərsə, bu işi daha gözəl icra etmək tələbatı yaranmalıdır. Biz bu istiqamətdə də heç bir iş aparmırıq. Amma onu da unutmaq olmaz ki,yeni nəslin inkişafında təkcə təhsil sistemi, valideyn yox, həm də gənclər özləri çalışmalıdırlar.

İstəyirəm ki, böyüyən yeni nəsil fiziki cəhətdən sağlam olsun. Bu istiqamətdə həm müəyyən strukturların üzərinə vəzifə düşür, həm də həmin nəslin özünün davranışından asılıdır. Bu sahədə ciddi düşünülməli, addımlar atılmalıdır. Elmə əsaslanan fəaliyyət proqramı hazırlanmalı, proqramda valideynlərə necə işləmək lazım olması qeyd olunmalıdır. Təhsil sistemi, qanunvericilikdə hansı dəyişikliklərin edilməsi, uyğun qurumların üzərinə düşən öhdəliklər qeyd olunmalıdır. Bütün bunları bir proqramda toplayaraq həyata keçirmək olar. Çünki bunlar hamısı bir vəhdətdir. Fiziki cəhətdən sağlam bədən olmalıdır ki, mənəvi cəhətdən də sağlam olasan. Yəni, bu istiqamətdə iş paralel aparılmalıdır”.

***✍ Sevinc***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Hədəfdə Xankəndidir...

***Laçın şəhərinin tam olaraq Azərbaycanın nəzarətinə keçməsinə saylı günlər qalıb. Ölkə ictimaiyyəti bu gün Laçınla bağlı gündəmi tutan hadisələri 44 günlük müharibənin və postmüharibə dövrünün nəticələri kimi dəyərləndirməkdədir. Siyasi ekspert Aydın Quliyev hafta.az-a bildirib ki, Azərbaycan 10 Noyabr sənədinin Ermənistan tərəfindən icra olunması yönündə irəlilədikcə Qarabağ ərazisində qanunsuz nəzarətdə saxlanılan ərazilərin də miqyası kiçilir, ermənilər həmin əraziləri tərk edirlər.***

## Aktual



“Heç şübhəsiz, Azərbaycan erməni vətəndaşlarını bu ərazilərdən çıxarmağa hədəflənmiş siyasət aparmır. Hələ sovet dövründə ermənəsilli vətəndaşların ”Dağlıq Qarabağ”ın hüdudları çərçivəsində qalıb, öz həyatlarını, fəaliyyətlərini davam etdirmələri dövlət siyasətimizin aparıcı istiqamətlərindən biri idi. Əgər ermənilər könüllü şəkildə ərazilərimizi tərk edib gedəcəklərsə, bu da onların öz haqqıdır.

Azərbaycan yaşayış yerini dəyişən ermənilərə ”Qalın!” deyərək yalvarmaq fikrində deyil. Əlbəttə, 10 Noyabr sazişinin yerinə yetirilməsi, xüsusilə də sərhədlərin dəqiqləşdirilməsi, qanunsuz erməni silahlılarının ərazilərimizdən çıxarılması, Laçında yeni yolun istifadəyə verilməsi və digər müddəalar həyata keçdikcə, pozuculuqla məşğul olan ermənilərin orada qalıb yaşamaları mümkünsüz olacaq. Bu nöqteyi-nəzərdən ermənilərin Xankəndi ətrafında, xüsusilə də hələ sovet dövründə yaşamadıqları, Ermənistanın işğal dövründə zorakılıqla zəbt etdikləri ərazilərdə qalıb-yaşamaları mümkünsüzdür”. A.Quliyev qeyd edir ki, 10 noyabrda imzalanmış sənədlər də bunu tələb edir. Onun sözlərinə görə, əgər ermənilər sovet dövründə Xocalı şəhərində yaşamırdılarsa, Xocalının sonradan orada məskunlaşdırılmış ermənilərdən təmizlənməsi də qaçılmaz olacaq.

“Bir sözlə, imzalanmış sənədlərin həyata keçirilməsi ilə Qarabağ ərazisində qanunsuz yaşayan ermənilərin çıxarılması baş verəcək. Ermənilər keçmiş Dağlıq Qarabağın hüdudları çərçivəsində harada yaşayıblarsa, o ərazilərdə də yaşaya bilərlər. Xankəndi və bir neçə kənd istisna olmaqla ermənilər bütün Qarabağı tərk edəcəklər. Xankəndidə qalan ermənilər də təbii ki, Azərbaycan qanunlarına tabe olmalıdır. Azərbaycan onlara hərbi zorakılıq göstərmək niyyətində deyil. Sadəcə 10 Noyabr sənədinin ruhu bunu tələb edir”. A.Quliyev hesab edir ki, Laçın şəhərinin və indiyədək sülhməramlıların məsuliyyət zonasında qalan bir neçə kəndin nəhayət Azərbaycanın nəzarətinə keçməsi bu ərazilərdə dövlət bayrağımızın qaldırılması tarixi əhəmiyyətli hadisədir və 44 günlük müharibənin zəfər qələbəsinin məntiqi nəticəsidir.

“Laçının Azərbaycanın silahlı qüvvələrinin və dövlət rəhbərliyinin nəzarətinə keçməsi həm də o deməkdir ki, Azərbaycan 10 Noyabr sənədinin müddəalarını həyata keçirməkdə ardıcıldır, iddialıdır”. A.Quliyev xatırladıb ki, Ermənistan bu sənədin icrasına qarşı müəyyən təxribatlar və maneələr törətsə də, Azərbaycan Ermənistanı bütün müddəaları icra etməyə məcbur edəcək.

*“Bu hadisə sübut etdi ki, müharibdənsonrakı ritorikanı Azərbaycan müəyyənləşdirir*

“Bu gün Laçın şəhərinin Azərbaycanın nəzarətinə keçməsi onu ifadə edir ki, Ermənistan öz təxribatçı planlarını həyata keçirməyə müvəffəq olmayacaq. Laçında bayrağımızın dalğalanması, hüquqi, siyasi proseslərin təsbitidir. Bayrağımızın Laçında dalğalanması bu prosesin Xankəndidə, Xocalıda da davam edəcəyi günün uzaqda olmadığını göstərir. Bu hadisə sübut edir ki, müharibdənsonrakı ritorikanı Azərbaycan müəyyənləşdirir.Ona görə də Laçında Azərbaycan Bayrağının dalğalanması sonrakı mərhələdə imzalanacaq sülh sazişinin bir əlaməti kimi də qəbul edilə bilər”.

***✍ Tahirə Qafarlı***

## XƏBƏRİNİZ OLSUN...



■ “Neft məhsullarının qüvvədə olan aksiz dərəcələri dəyişdirilib. Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Aİ-92 avtomobil benzininin aksiz dərəcəsi 42 faizdən 42,5 faizə, dizel yanacağının aksiz dərəcəsi isə 18 faizdən 18,3 faizə qaldırılıb.

---

■ Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ukraynanın Müstəqillik Gününü təbrik edib. XİN bu barədə ”Twitter”də paylaşım edib. ”Ukraynanı Milli Günü münasibətilə ürəkdən təbrik edir, bu sevincli gün münasibətlə ölkənin gələcəyinə sülh və rifah arzulayırıq. Milli Gününüz mübarək, Ukrayna!”, paylaşımda qeyd olunub.

---

■ Qazi Şahid Şükürov dünyasını dəyişib. Laçın rayonunun Qarakeçdi kənd sakini olan Vətən müharibəsi iştirakçısı, 1998-ci il təvəllüdlü Şükürov Şahid Manaf oğlu yaşadığı Ağcabədi rayonunda vəfat edib. Qeyd edək ki, o, Vətən müharibəsinə könüllü yollanıb və ayağından qəlpə yarası alıb. Ş.Şükürov ailəli idi. İki övladı var.

---



■ “Ukrayna münaqişəsi ABŞ və müttəfiqləri üçün Rusiyaya qarşı iqtisadi və informasiya müharibəsinə başlamaq üçün növbəti bəhanə oldu”. Bu sözləri Rusiya müdafiə naziri Sergey Şoyqu Şanxay Əməkdaşlıq Təşkilatının iştirakçısı olan ölkələrin müdafiə nazirlikləri rəhbərlərinin müşavirəsində deyib.

---

■ Professor Hikmət İbrahimov vəfat edib. Neft-Kimya Prosesləri İnstitutunun şöbə müdiri, kimya elminin inkişafında mühüm xidmətləri olan tanınmış alim, professor avqustun 23-də 71 yaşında dünyasını dəyişib. Qeyd edək ki, alim müasir neft emalı sənayesinin əsas inkişaf istiqamətlərindən biri sayılan ağır neft qalıqlarının (qudron, mazut, ağır piroliz qətranı) emala cəlb edilməsilə açıq rəngli neft məhsullarının alınması istiqamətində elmi-tədqiqat işləri aparıb.

---

■ Roma Papası Fransisk rusiyalı jurnalist və politoloq Darya Duqinanın ölümündən təəssüfləndiyini bildirib və onu “günahsız qurban” adlandırıb. ”Moskvada avtomobil oturacağının altına qoyulmuş bomba ilə partladılmış yazıq qızı düşünürəm. Müharibənin əvəzini günahsızlar ödəyir”, - deyə Roma Papası vurğulayıb.

---



■ Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Suriya Milli Koalisiyasının prezidenti Salem Əl-Meslet, Danışıqlar Komissiyasının sədri Bedr Camus və Müvəqqəti hökumətin baş naziri Əbdürrəhman Mustafa ilə görüşüb. Bu barədə bu barədə nazir “Twitter“ hesabında məlumat paylaşıb.“Biz müxalifətin BMT Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsi çərçivəsində siyasi proseslərə verdiyi töhfəni yüksək qiymətləndirir və dəstəkləyirik”.

---

■ Qarabağ bölgəsində yerləşən və tarixi əhəmiyyət kəsb edən mədəniyyət abidələri və onların ətrafı Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən təmizlənərək müvafiq qurumlara təhvil verilib. Bu barədə ANAMA məlumat yayıb.

# Rusiya Ordusuna qarşı iki rus batalyonu döyüşür



**Elxan Nuriyev,**
hərbi ekspert, polkovnik

***Ukrayna Ali Radasının hüquq siyasəti və ədalət məhkəməsi komitəsinin məsləhətçisi və Ukrayna Zabitlər Birliyi mərkəzi nəzarət-təftiş komissiyasının sədri olan hərbi ekspert, polkovnik Elxan Nuriyev hafta.-az-a bu dəfəki müsahibəsində iyul-avqust aylarındakı hərbi əməliyyatlar nəticəsində Rusiya-Ukrayna cəbhəsində hansı dəyişikliklər, Ukraynanın Müstəqillik günü ərəfəsində Rusiya tərəfindən gözlənilən hücum və təxribatlar, "rus dünyası"nın ideoloqu Aleksandr Duqinin qızının avtomobilinin partladılması nəticəsində baş verən ölümü ətrafındakı versiyalar və s. mövzularında danışdı.***

## Müsahib

***- Putin Ukraynaın Müstəqillik günü ərəfəsində hansı açıq və gizli planlara əl ata bilər? Bəs cavabında Ukraynanın hansı tədbirləri görmək imkanı var?***

- Krımda baş verənlər, ümumiyyətlə, Rusiya tərəfə "Artıq biz gəlirik, sizin vaxtınız bitibdir!" mesajıdır. Bizdə olan məlumatlara görə, Putin Rusiyasının açıq və gizli planları bundan ibarətdir ki, Belarusun Ukrayna ilə sərhəddəki Zabrayevka məntəqəsində, Rusiya-Ukrayna sərhədində çoxlu raket kompleksləri toplayıb, Qara dəniz donanmasında iki "Kalibr" daşıyan gəmisi də hazır vəziyyətə gətirilib.

Həm 23 avqust - Ukraynanın Bayraq günündə, həm də 24 avqust - Dövlət Müstəqilliyi günündə iri şəhərlərə, xüsusən də paytaxt Kiyevə kütləvi raket və aviasiya hücumları gözlənilir. Ukraynanın aviasiyası, raket və hava hücumundan müdafiə qüvvələri ən yüksək hazırlıq vəziyyətinə gətirilib. Putinin gizli edə biləcəkləri isə həmişəki kimi özünü terror və diversiya aktları ilə büruzə verə bilər. Amma Ukrayna xüsusi xidmət orqanları Rusiyanın bir çox terakt və təxribatlarının qarşısını alır və düşmənin bu sahədə son aylar elə bir xüsusi uğuru olmayıb...

***- Rusların Krımdan, Sevastopoldan qaçması haqqında xəbər və görüntülər gerçəkdirmi?***

- Bəli, bunlar tamamilə həqiqətdir. Rusiyadakı, Krımdakı dost-tanışlarımız da bunları təsdiqləyir.

Həmçinin Krım-tatar məclisinin üzvləri arasındakı dostlarımız da... Bütün bunları peyk görüntüləri də sübut edir. Doğrudan da real vəziyyət belədir. Yalnız Krımdan deyil, eyni zamanda son günlər xəbər verildiyi kimi, Xersondan Dnepro çayının sağ sahilində toplanmış və mühasirəyə düşmüş Rusiya ordu birləşmələrinin komandanlığının da qaçdığı təsdiqlənir.

Az öncə Xerson Vilayət Hərbi Administrasiyası sədrinin müavini İqor Sobolevski bu haqda birbaşa efirdə məlumat verdi. Həmçinin Krımdan Rusiyanın "FSB" və digər xüsusi xidmət orqanlarının öz ailələrini çıxarmaları haqda məlumatlar da var. Krım-tatar xalqının lideri Mustafa Cəmilovun sözlərinə görə, Rusiya Krıma qanunsuz olaraq 600 mindən 1 milyona qədər Rusiya vətəndaşı yerləşdirib. Bu sayda insanın yarımadanı tərk etməsi Rusiyaya böyük zərbə olar. Və hazırda Krımdan qaçaqaç olduğu tam dəqiqdir...

***- Rusiyada Kreml təbliğatçıları, o cümlədən son məlumatlara görə, Federal Təhlükəsizlik Xidməti də "rus dünyası"nın ideoloqu Aleksandr Duqinin qızının avtomobilinin partladılması nəticəsində baş verən ölümündə Ukrayna dövlətini günahlandırmağa çalışır. Dövlət Dumasının sabiq deputatı İlya Ponomaryov isə "Rusiya Milli Respublika Ordusu" adlanan təşkilatın Darya Duqinanın ölümü ilə bağlı məsuliyyəti öz üzərinə götürdüyünü bəyan edib. O əlavə edib ki, Ukraynada Rusiya Könüllü Korpusu və Azad Rusiya Legionu adlı qurum da vuruşur... Bu haqda sizin düşüncələrinizi bilmək maraqlı olardı...***

- Duqinin qızına qarşı terror aktı Putindən sonrakı, post-Putin dövründə Rusiyanın hakimiyyətə can atan siyasi elitalarının nə qədər qəddar olacağının sübutudur. Yəni Ukraynanın bu teraktla heç bir əlaqəsi ola bilməz. Əvvəla, Ukrayna terror dövləti deyil. İkincisi də, heç Ukrayna Rusiyanın mərkəzində, paytaxtında belə bir akt həyata keçirməyi də bacarmaz... Bu gün yeni istintaq nəticələri əldə olunub. Rusiya xüsusi xidmət orqanları müəyyən edib ki, Duqinin avtomobili izlənilirmiş. Belə nəticəyə gəlinir ki, bu terakt Rusiya xüsusi xidmət orqanlarına bağlı siyasi elitanın daxilindəki ziddiyyət və qarşıdurmaların nəticəsidir. Bu, doğrudan da belədir. Aleksandr Duqin siyasi-ideoloji baxımdan Putindən sonrakı dövrdə müəyyən elit siyasi dairələrin işlərini korlaya bilər. Çox güman ki, ölüm əməliyyatı onun özü üçün nəzərdə tutulubmuş, sadəcə, o, son anda avtomobilini dəyişib... Mənim şəxsi baxışım belədir. Bu Ukrayna dövlətinin yanaşmasıyla da üst-üstə düşür...

***- Bəs Dövlət Dumasının sabiq deputatı İlya Ponomaryovun guya Ukraynada Putin ordusuna qarşı "Rusiya Könüllü Korpusu" və "Azad Rusiya Legionu" adlı qurumların vuruşması haqqında dedikləri doğrudurmu?***

- İlya Ponomaryov mənim də dostumdur. Bəli, onun dedikləri doğrudur. Ukraynada Putin Rusiyasına qarşı döyüşən Rusiya hərbi birləşmələri doğrudan da var. Və onlar artıq aprel ayından bəri döyüşürlər. Bu haqda mənim yazılarım da olub. Bu saat artıq Putin ordusuna qarşı iki rus batalyonu döyüşür. Onu da deyim ki, həmin batalyonlarda döyüşən rus hərbçilərin bir qismi müharibə vaxtı, o cümlədən 2014-cü ildən bəriki Donbas savaşı zamanı könüllü olaraq Ukrayna tərəfinə keçənlərdir. Eyni zamanda əsir düşənlər də var ki, Rusiya hakimiyyəti tərəfindən aldadıldıqlarını sonradan dərk ediblər. Hətta Rusiya "FSB"-sindən hələ indiki müharibədən öncə Ukrayna tərəfə keçənlər də var...

> Rusiya ordusunun infrastrukturu, bazaları, kazarmaları, loqistikaları məhv edilir

Rusiyaya qarşı döyüşən rusların çoxu heç Ukraynada da doğulan ruslar deyil. Onlar özlərini rus mənşəli hesab edirlər. Həmin rus hərbçilər, o cümlədən İlya Ponomaryov da həsab edirlər ki, hazırkı Putin iqtidarı ruslara qarşı bütün dünyada, xüsusən Rusiyanın keçmiş müstəmləkələri olan ölkələr arasında nifrət yaratmaqla tamamilə yanlış bir siyasət aparır...

Məsələn, zamanında Böyük Britaniya Krallığı imperiyası dünya okean və dənizlərinin yarısına nəzarət edib, böyük koloniyaları, müstəmləkələri olub. Fəqət elə bir zaman gəldi, britaniyalılar anladılar ki, müstəmləkə saxlamaq həm böyük əziyyət və xərcdi, həm də hakim xalqın, yəni ingilislərin özünə zərərdir. Britaniya rəhbərliyi belə bir qərara gəldi ki, müstəmləkələrimizi rəsmən azad buraxaq və elə bir güclü milli dövlət quraq ki, planetin hər yerindən, xüsusən də keçmiş koloniyalardan insanları cəlb etsin. Nəticədə Britaniya adalarında doğrudan da elə bir güclü, həm də sivil dövlət qurdular ki, bu gün keçmişdə ingilis imperiyası təbəələri olmuş hindistanlı, pakistanlı, cənubi afrikalı və s. üçün ən böyük arzulardan biri İngiltərədə, Londonda hüquq təhsili almaqdır.

Bu gün London şəhərinin merinin pakistanlı olması, hazırda mühafizəkarlar partiyasının liderliyinə namizədlərdən birinin hindu mənşəli hindistanlı olması və s. dediklərimizi sübut edir. Bu mənada düşüncəli ruslar da gözəl anlayır ki, imperiyaların ən böyük zərəri həmin imperiyanı qurmuş hakim, titullu sayılan xalqadır. Yəni bu gün Rusiyada pis, neqativ nə baş verirsə, rusların ayağına yazılır. Bir sözlə, yaxın dostlarımızdan olan İlya Ponomaryov, İlya Yaşin, Olqa Kurnosova və s. kimi Rusiya ziyalıları yaxşı dərk edirlər ki, Rusiya özünə ruslar üçün bir dövlət qurmalıdır. O halda etnik rusların rufahı da yaxşı olar...Yoxsa planetin 1/6-i tutub "hər kəs mənim tabeliyimdə yaşamalıdır" deməklə heç nə alınmayacaq... Müasir dünya, yeni dünya bu formada müstəmləkəçiliyi rədd edir. Artıq insanlar hamısı azad yaşamaq istəyir. Yəni Putinin qayıtmaq istədiyi o dövr - orta əsrlər dövrü çoxdan bitib...

***- Ponomaryov və onun tərəfdarları həm də hesab edir ki, iki slavyan xalqını düşmən etməklə Putin bağışlanılmaz səhv edib.***

- Əlbəttə, elədir. Rusiya strateji olaraq müharibəni uduzub və bunu sadəcə, fizikiləşdirmək lazımdır. İnşAllah, Xerson da azad olunacaq. Antonov, Kaxovka körpüsü və İnquleti çayı üzərindəki körpülər də vurulduqdan sonra artıq Xersonun azad ediləcəyi gün yaxındadır. Həmin körpülərin vurulması nəticəsində Rusiya ordusunun 25 minə yaxın canlı qüvvəsi Dnepro çayının sağ sahilində Xerson şəhəri də daxil olmaqla tam mühasirə şəraitindədir. Üç tərəfdən Ukrayna ordusu ilə mühasirədədir, digər tərəfdən isə Dnepro çayıdır. Yəni real vəziyyət belədir.

Ukrayna dövləti və Silahlı Qüvvələri deyilən ərazilərdə bizim vətəndaşların da yaşadığını və hücum zamanı itkilərin çox ola biləcəyini nəzərə alaraq birbaşa basqılardan istifadə etmir. Rusiya ordusunun infrastrukturu, bazaları, kazarmaları, loqistikaları məhv edilir. Ukrayna komandanlığı da onların nə zaman təslim olacağını gözləyir. İnşAllah, yaxın bir neçə həftə ərzində hər şey öz yerini tutacaq və Rusiya qoşunlarının Xersondan çıxarılması baş verəcək. Buna əmin ola bilərsiniz...

***- Konkret olaraq iyul-avqust aylarındakı hərbi əməliyyatlar nəticəsində Rusiya-Ukrayna cəbhəsində hansı dəyişikliklər baş verib? Hərbi ekspert Pyotr Çernik bildirib ki, payızda lend-liz proqramı çərçivəsində yardımlar alındıqdan sonra daha ciddi dönüş olacaq.***

- Qərb "ATACMS" raketlərini də verməyi planlaşdırıb... O da doğrudur ki, lend-liz proqramı çərçivəsində Ukraynaya Amerika yardımı daha geniş miqyasda davam edəcək ki, bu da cəbhədə daha böyük dönüşlərə gətirib çıxaracaq... Amma ümumiyyətlə, bütövlükdə öncə dediyim kimi, Rusiya strateji mənada savaşı uduzub... Bu işğalçı ordunun qalib gəlmək üçün nə fiziki gücü, nə maliyyəsi, nə müasir texnologiyası, nə silahı, texnikası var, nə də ki motivasiyası var. Bu, öz yerində. Bilirsiniz ki, iyulun 2-də iki aya yaxın gərgin döyüşlərdən sonra Lisiçansk şəhəri düşmənə verildi. Həmin dövrdə Ukrayna ordusu cənub istiqamətində çox uğurlu əməliyyatlar həyata keçirdi, 54 yaşayış məntəqəsi azad edildi. İndi məlum olduğu kimi, Xerson vilayətinin işğal edilmiş əraziləri və Xerson şəhərindəki Rusiya ordusu mühasirə şəraitinə düşdü. Nəticədə 2 aya yaxındır ki, Ukraynadakı müharibənin xarakteri tamamilə dəyişib. Bəs bu dəyişiklik nədən ibarətdir? Əvvəla, birbaşa, üzbəüz, açıq döyüşlər azalıb. İkincisi, Ukrayna ordusu daha mükəmməl, daha dəqiq və daha uzaqvuran artilleriyanın, dronların köməyi ilə düşmənin infrastrukturunu, arxa cəbhəni, loqistika yollarını, bazalarını və şəxsi heyətini məhv edir. Rusiya tərəfi isə artıq kiçik ərazi döyüşləri apamağa səy göstərir ki, buna adətən mövqe döyüşləri deyirlər. Mövqe döyüşlərində də düşmənin ən çox istifadə etdiyi 25-30 nəfərlik kiçik qruplardır, yaxud ən yaxşı halda bir rota (bölük) həcmində birləşmələrdir. Yəni Rusiya daha əvvəlki kimi Ukraynanın hansısa ərazilərinə kütləvi, genişmiqyaslı hücum etməyi bacarmır. Bunun üçün sadəcə, taqətləri qalmayıb. Xülasə, müharibə nəzəriyyəsi əsasında danışsaq, Ukrayna tərəfindən Rusiya ordusu tamamilə taqətdən salınıb, idarəetmə sistemi məhv edilib, tükədilib. Nəticədə işğalçı qoşunlar arasında fərarilik, müqavilə və əmrlərdən imtina etmə, intizamsızlıq və s. halları gündən-günə kütləviləşir... Rusiyanın "Ordu və hüquq" adlı hüquq müdafiəçiləri qurumunun yaydığı məlumata görə, hər gün Ukraynada döyüşən hərbi hissələri tərk etmiş yüzlərlə hərbçi və onların valideynləri hüquqi müdafiə tələb edirlər. Bu mənada yenə də deyirəm ki, Putin Rusiyasının bundan sonra edə biləcəyi yalnız dinc əhaliyə qarşı raket və aviasiya hücumu və terror, diversiya aktları ola bilər. Ukrayna Ordusu isə üzbəüz döyüşdə həmin ölkənin ordusu heç bir uğur əldə edə bilməyəcək...

✍ Sultan

# Qarabağ böyük regionda balaca bir oddur

***Regionun geosiyasi mənzərəsi Laçının ermənilərdən boşaldılması prosesi ilə yeni müstəviyə keçib. Zəngəzur yoluna qarşı yönələn manevrlər, 10 Noyabr sazişinin yerinə yetirilməməsi, maraqlı güclərin, müəyyən dini təsirlərin vasitəsilə Azərbaycanı məqsəd və hədəflərindən yayındırma cəhdləri heç də vəziyyətin hamar olmadığını göstərir. "Laçın dəhlizi"nin təmizlənmə prosesinin Xankəndidə tamamlanması ilə Azərbaycanın tarixi torpaqlarına qayıdışı yeni bir mərhələnin başlanmasına yol açacaq. Müsahibimiz siyasi ekspert Azər Hüseynovdur.***



**Azər Hüseynov,**
siyasi ekspert

## Müsahib

***- Region hazırda nəyə şahidlik edir?***

- Regionumuz son dövrlər ən inkişaf etmiş, dinamik bölgələrdən biridir. Son tarixlərdə ildırım sürəti ilə bitən müharibə şəraitini yaşadıq. Necə vaxtdır, Ukraynada gedən müharibə, dünyanın digər nöqtələrində olan müharibələr bitmir. Azərbaycan 44 gün ərzində 30 il müddətində yığılmış problemini hərbi yolla həll etdi. Bu da problemin tamamilə həll olunması anlamına gəlmir. Beynəlxalq, regional, lokal miqyasda bir çox oyunçular var ki, Azərbaycanın güclənməsini, beynəlxalq arenada nüfuzunun artmasını istəmir. Biz tərəfdaş ölkələrlə müqavilələr imzalayıb, razılaşmalar əldə etsək də, hamı bunu səmimi qəbul etməyib. Müharibənin bitməsi ilə üç dövlət arasında razılaşma əldə etdik. Həmin razılaşmanın şərtlərinə görə, Rusiya sülhməramlılarının bölgəyə gəlməsi ilə bögədə ermənilərə məxsus olan bütün hərbi birləşmələr çıxarılmalı idi. Bu proses olduğu kimi cərəyan etmədi.

Ukrayna müharibəsi dünyada bir çox amillərin göründüyü kimi olmadığını göstərdi. Böyük güclərin bir qisminin o qədər də güclü olmadığını göstərdi. Hamının bitməkdə, itməkdə olduğunu gözlədiyi Rusiyanın Avropanın ortasında bir savaş apardığı, bir ölkənin 20 faiz ərazisini ilhaq etdiyi ortadadır. Bu ilhaqın qarşısında müəyyən bəyanatlar və Ukraynanı böyük hərb maşınının qarşısında tək buraxmış dünyanı görürük.

> Azərbaycan Avropada müsəlman dünyasının İsraili olmağa məhkumdur

Belə bir qlobal burulğanların fonunda gördük ki, tərəfdaşlarımız kifayət qədər səmimi deyil. Son "Qisas"-əməliyyatından sonra proseslər daha da intensivləşməyə başladı. Bu, bir daha onu göstərir ki, iddialı, tarixi mirası olan dövlət sözünün keçmişi üçün güclənməlidir. Bizim tarixi mirasımız var. Dövlət başçısının əlində göstərdiyi Azərbaycan xəritəsini ifadə edən suvenir də tarixi mirasımıza dönüşün işarəsidir. Tarixi mirasımızı, hüquqlarımızı bərpa etmək istəyiriksə, xalq-dövlət, xalq-ordu, ordu-xalq formasında vahid dövlət olmalıyıq.

***- Ermənistan və Rusiyanın regionda apardığı siyasətin əsasında nə dayanır?***

- Paşinyan Ermənistan hakimiyyətində çat əmələ gətirdi. Hərbi-siyasi elita indi də Rusiyanın təsir dairəsindədir. Qarabağda olan kiçik separatçı qurum 1828-ci ilin meyvəsidir. Ona görə ruslar Qarabağda öz təsir vasitəsinin ortadan qalxmasında maraqlı deyil. Bu o deməkdeyil ki, Rusiya sarsılmaz gücdür, xeyr. Rusiya özü də qlobal, regional proseslərlə ayaqlaşmaq məcburiyyətindədir. Azərbaycan Rusiyanın yaxşı mənada nəfəs borusu ola bilər. Buna görə də separatçıların rahat nəfəs alması üçün şərait yaratmamalıdır. Rusiya erməni silahlılarını regiondan çıxarmalı idi. Rusiyanın siyasətində baş verən ziqzaqlar göstərir ki, onların da siyasi mətbəxində hamı eyni cür düşünmür.

Rusiyaya standart Avropa dövləti kimi baxmaq olmaz. Rusiya tarixindən bu günə qədər fors-major ölkəsidir. Ağıllılar fikirləşənədək "Rusiya vurub çayı keçir". Dünyanın geosiyasi mərkəzləri bir yerə yığılıb, planlar cızanadək bunlar Avropanın yarısını tuturlar. Bu, tarixi imperial iddiaları olan bir dövlətdir. Bu iddialarını reallaşdırmaq üçün xalqının içərisində bu ideyanı həzm etdirə bilmişdir. Ukrayna əməliyyatını 80 faiz rus dəstəklədi.

Bizim Rusiyanın Ukraynada apardığı əməliyyatdan istifadə edəcəyimiz tərəflər var. Məsələn, ruslar deyir ki, Avropanı nasistlərdən qorumaq üçün önləyici əməliyyatlar aparırıq. Bəs Azərbaycanda, İrəvanda azərbaycanlılara, türk dünyasına qarşı nasist fikirlər 100 ildir səslənmirmi? Ermənistan siyasi partiyalarının konsepsiyalarında Azərbaycana qarşı ərazi iddiaları var. Rusiya iddia etdyi kimi, Ukraynada anti-faşist əməliyyatı aparırsa, biz niyə eyni əsaslarla Zəngəzura daxil olmayaq, təhlükə nöqtələrini vurmayaq? Niyə Amerika okeanın o tərəfindən gəlib "milli maraqlarına ziyan vurur" deyə, Şərqdə ölkələri bombalaya bilir?

İrəvanda tarixi mirasımız var. İrəvanı, Göyçəni yaxın tarixdə tərk etmiş milyonlarla insanlarımız var. Niyə eyni iddialarla çıxış edə bilmirik? Yəqin ki, iqtisadi, hərbi, regional, qlobal konyuktur tamamlandıqda bunu edəcəyik. Necə ki, Qarabağ müharibəsi bu komponentlərin tamamlanması səbəbi ilə başladı və ərazilərimizi azad etdik, ümid edirəm, eyni konyuktura ilə bunu edəcəyik.

***- Dediyiniz həmin konyukturun Laçın dəhlizinə çəkilən alternativ yolun Zəngəzura doğru gedən istiqaməti üzrə özünü ifadə edə bilirmi?***

- Yol onsuz da lazımlıdır. Qarabağda "ocaq"ın söndürülməsinin bir yolu var - o da Zəngəzur yolunun açılmasıdır. Qarabağ böyük regionda balaca bir oddur. Ermənistandan, Rusiyadan, başqa marağı olan dövlətlərdən keçən oksigen o közü alovlandırır. Ona görə də o yollar bağlanmalıdır. Geosiyasi, geoiqtisadi konyuktur tamamlandıqdan sonra, tarixi hüquqlarımızı bərpa edib vətəndaşlarımızı o ərazilərə köçürərək, orada tarixi-mədəni, siyasi hüquqlarımızı yenidən bərpa edəcəyik. Azərbaycanlılara tarixi Zəngəzurda muxtariyyət alaraq problemlərimizi yerində həll etməli və bu oksigeni kəsməliyik.

Qarabağda baş verənlər lokal hadisələrdir. Məsələn, "Qisas" əməliyyatı keçirdik və ermənilər qorxub köçdülər. Canlarından bir az qorxu çıxandan sonra yenə əvvələ dönə bilərik. Azərbaycanın tam olaraq rahat hərəkət etməsinə maneələrdən biri Naxçıvanla quru əlaqəsinin olmamasıdır. Bu bizim hərəkətliliyimizi azaldan amildir.

***- Ermənistanın və maraqlı güclərin Azərbaycanda özlərinə "dəhliz" yaratmaq iddiasına adekvat reaksiya nə olmalıdır?***

- Qarabağa status verməyəcəyik. Dövlət başçısı bunu çıxışlarında bəyan edib. Düşmənə dəhliz verməyin siyasi izahı yoxdur. Qarabağda olan ermənilərin siyasi statusu yoxdur. Xarici təsirlər səbəbindən bəzi müvəqqəti razılaşmalı olduğumuz məsələlər var. Azərbaycan bu reallıqları dəyişəcək. Azərbaycandan Ermənistana əlavə yolun verilməsinə nə ehtiyac var? Ermənistana getmək istəyən gömrük-keçid məntəqəsindən pasportunu sərhəddə təqdim edib keçə bilər.

"Dəhlizlər" deyilən anlayışın gələcəkdə yola çevriləcəyini düşünmək və buna doğru hərəkət etmək lazımdır. 1929-cu ildə qeyri-legitim yolla Ermənistana verilmiş torpaqların yenidən Azərbaycana qaytarılması lazımdır.

***- Ermənistanla sülh sazişinin bağlanması prosesi nə zamanadək uzana bilər?***

- Bizim qarşımızda qeyri-stabil qərar verən, xarici amillərdən asılı olan bir Ermənistan var. "Qisas" əməliyyatı, yaxud başqa formatlarda ara-sıra Azərbaycan aviasiyasının bölgədə "tur atması ilə də bunu yaxın perspektivə gətirə bilərik. Yəni buna konkret vaxt qoymaq çətindir. Hərbi ritorika ilə diplomatik ritorikanı birləşdirsək, sülhü yaxına çəkə bilərik. Diplomatik "trafiki" genişləndirmək lazımdır. Bu gün ermənilər məğlub olsalar da, onların diplomatik aparatı xaricdə dayanmadan işləyir. Bizdə isə xarici siyasətdə yalnız yüksək iradə məşğul olur, bunun altında olanlarda isə təşəbbüskarlıq, hərəkətlilik görünmür. Lobbiçilik siyasətimiz yoxdur. Ermənilər, hətta qardaş Türkiyədə belə müxtəlif mədəni formatlarda öz lobbiçilik syasətini aparırlar. Azərbaycan Avropada müsəlman dünyasının İsraili olmağa məhkumdur.

✍ Tahirə Qafarlı

# “Şort davası”

***Son günlər bölgələrə gedən yerli turistlərlə sakinlər arasında geyimlə bağlı insidentlər yaşanır. Məlum olduğu kimi, son belə bir insident İsmayıllı rayonunun Qalacıq kəndində yerli turistlərlə sakinlər arasında baş verib. Belə ki, kənd sakinləri onları “şortik” geyindiklərinə görə ərazidən uzaqlaşamağa məcbur ediblər. Məsələyə hüquq-mühafizə orqanları müdaxilə edəndən və sakinlərlə proflaftik söhbət aparandan sonra gərginlik aradan qaldırılıb.***



## Müzakirə

Bəs, görəsən, bu kimi hallar nədən qaynaqlanır? Təbii ki, Azərbaycanın bölgələrinə təkcə yerli turistlər getmirlər və xarici turistlər də səfər edirlər. Bu kimi insidentlərin gələcəkdə turizmin inkişafına neqatif təsirləri ola bilərmi?

■ **Məsələni hafta.az-a şərh edən turizm məsələləri üzrə ekspert Ceyhun Aşurov deyib ki, dünyada qəbul olunmuş yay geyimi ilə harasa səfər etmək problem yaratmamalıdır: “Əslində, bizdə baş verən hadisələr kiçik və istisna hallardır.** Düşünmürəm ki, ölkə üzrə “şortik”lə bağlı belə bir qadağa var. Əvvəlki illərlə müqayisə vəziyyət xeyli dəyişib. Bəlkə də 20-30 il əvvəl şortla gəzmək bizim üçün çox qeyri-adi görünə bilərdi. İndiki durumda bu məsələdə qeyri-adi heç nə yoxdur. Hətta bizdə əvvəl xanımların şalvar, cins geyinməsinə qeyri-adi yanaşılırdı. İndi bütün bunlar hamısı adiləşib. Yəni kimə necə rahatdır geyinir. Təbii ki, əxlaqi normanı pozmadan geyim forması bizim ölkədə sərbəstdir. Onu bu şəkildə qabardıb təqdim etmək əlbəttə ki, yanlış təsəvvürlər formalaşdıra bilər. Hesab edirəm ki, bu məsələdə həm medianın, həm də aidiyyəti qurumların üzərinə məsuliyyət düşür. Bu məsələdə maarifləndirici məqamlar qabardılmalıdır. İnsanları qıcıqlandıran məsələləri qabartmaqdan düzgün deyil. İstənilən halda həm yerli, həm xarici turistlər turizm bölgələrində yaşayan insanlar üçün gəlir mənbəyidir. Turist əxlaqı, etik normanı pozmursa, müəyyən normaları qoruyursa şort da geyinə bilər, digər rahat geyim də. Doğru maarifləndirmə aparılmalıdır ki, hansısa yanlış anlaşılmazlıq baş verməsin. Belə insidentlərlə bağlı videolar xarici saytlara da düşə bilər, həmin videolara xarici vətəndaşlar baxa bilərlər. Onlarda ölkəmizlə bağlı yanlış təsəvvürlər oyana bilər. Düzdür, turizmin təkcə müsbət xüsusiyyətlə yoxdur. Onun mənfi tərəfləri də var. Turizmin inkişaf etdiyi ölkələrdə, xüsusən axının çox olduğu yerlərdə aydındır ki, kriminal, narkotik, insan alveri kimi xoşagəlməz hallar da var.

Ölkələr bunu mümkün qədər nəzarətdə saxlamağa çalışır və daha çox müsbət tərəflərindən faydalanmağa çalışırlar. Eyni zamanda, Azərbaycanda turist sayı elə çox deyil, potensialından aşağıdır. Quru sərhədlərinin bağlı olması ilə bağlı yerli turistlərin çoxu regionlara yönəliblər. Nəticədə daxili turizm daha çox canlanıb. Ola bilər ki, əhali birdən-birə bu qədər turist axınına hazır deyildi. Bu kimi hallar tənzimlənə bilən durumlardır və aidiyyəti qurumlar belə məsələlərə vaxtında çevik reaksiya versələr, ortada hansısa problem olmaz”.

“

*Turist əxlaqı, etik normanı pozmursa, müəyyən normaları qoruyursa şort da geyinə bilər, digər rahat geyim də*

*Əgər bir kənddə camaat bu şəkildə gəzmirsə, kimsə “şortik” geyinib özünün mədəni olduğunu nümayiş etdirməlidir?*

*Bu cür insanlar daha çox fərdi düşüncə deyil, toplum düşüncəsindən addım atırlar*



■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən sosioloq Əhməd Qəşəmoğlu deyib ki, mədəniyyəti yüksək olan insan o insandır ki, hansısa gərginlik yaratmağa çalışmasın:**

“Mən bu yay demək olar ki, bütün bölgələrdə olmuşam. Həm də gərginlik yaranan bölgələrdə. İnsanlarla söhbətləşmişəm, fikirlərini öyrənmişəm. Deməli, əhalinin ən çox narahat edən turistlərin əraziləri zibilləməsi və geyim məsələsidir. Əgər bir kənddə camaat bu şəkildə gəzmirsə, kimsə “şortik” geyinib özünün mədəni olduğunu nümayiş etdirməlidir? Camaat bunu istəmir. Mədəniyyətsizlik gərginliyi yaradandadır. Ona görə bu məsələdə dərhal kənd camaatını günahlandırmaq düzgün deyil. Bir məsələdə də var ki, bəzən kənd yerində bəzi maraqlı adamlar gərginlik yaratmaq üçün kənd camaatının zəif damarından sui-istifadə edirlər. Bunu da nəzərə almaq lazımdır və belə məsələlərdə diqqətli olmaq vacibdir”.

■ **Məsələnin psixoloji tərəflərinə gəlincə, psixoloq Vəfa Əkbər bizimlə söhbətində bildirib ki, ümumiyyətlə, bir insan öz həyatını özü idarə edə bilmədikdə başqalarını rahatlıqla qınaya bilir:** “Əksər hallarda belə insanlar cəmiyyət üçün yaşayır və əxlaqi normativlər, ədəbərkan ona lazımdır deyə deyil, el qınayar, el belə istəyir deyə edirlər. Nəticədə bu insanlar başqalarının da şəxsi həyatını müzakirə və mühakimə edə bilirlər. Əksərən bu elə bir yerlərdə olur ki, orda insanlar öz fikirlərini, öz düşüncələrini ifadə etməkdə çətinlik çəkir. Və ona görə də onların içində daim məişət aqressiyası var. Öz sərbəstliklərini, öz müstəqilliklərini qazana bilmədikləri, özləri müəyyən bir çərçivədə olduqları üçün başqalarının da bu normativlərə uyğun davranmasını gözləyirlər. Ümumiyyətlə, ən böyük tərbiyəsizlik başqa bir insanın həyatını mühakimə etmək, onu qınamaq, ya da onun istəyi olmadığı təqdirdə onu müzakirəyə qoymaqdır.

Birinci qayda bunu özümüz üçün təyin etməliyik. Qaldı ki bunun qarşısını necə almağa, hər belə davranışlarda, belə ictimai qınaqlarda bu fikirli insanlar əks reaksiya görsələr, yəni, onların bu fikrini dəstəkləməyən insanların sayının çox olduğunu gördükcə onlar da artıq başqalarının həyatını müzakirə etməkdən vaz keçəcəklər. Bu cür insanlar daha çox fərdi düşüncə deyil, toplum düşüncəsindən addım atırlar. Hansısa məsələni, fikri toplum qəbul etsə, onlar da qəbul edirlər”.

✍ ***Sevinc***

# “Shusha Chess 2022” turnirinin loqotipi təqdim olunub

**Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə keçiriləcək “Shusha Chess 2022” beynəlxalq şahmat turnirinin loqosu təqdim olunub.**




Apasport.az saytının məlumatına görə, “Shusha Chess 2022” beynəlxalq şahmat turnirinin rəsmi loqotipi müxtəlif tarixi-mədəni elementlərdən ilhamlanaraq ərsəyə gətirilib.

İntellektual idman yarışının əsas vizual təsvirini təşkil edən loqotipdə Şuşa Qalası, Qarabağ atı və şahmat fiquru kimi topun elementlərinin kombinasiyası yaradılıb. Loqotipdə Şuşa Qalasının üzərindəki yazıya uyğunlaşdırılan şriftdən istifadə olunub.

Qeyd edək ki, “Shusha Chess 2022” beynəlxalq şahmat turniri 21-24 sentyabr tarixlərində keçiriləcək.

# “Nar” Quba və Mingəçevirdəki abunəçilərinin görüşünə gəlir! ®

**Maraqlı vaxt keçirmək və dəyərli hədiyyələr qazanmaq istəyənlər üçün “Nar” bölgələrdə əyləncədolu yay kampaniyasını davam etdirir. Növbəti kampaniya avqustun 19-u Qubada, 21-də isə Mingəçevir şəhərində keçiriləcək.**



Tətilinizə rəng qatmaq istəyirsinizsə, sevdiklərinizlə birgə “Nar”ın yay kampaniyası üçün özəl hazırladığı oyunlara qoşulub əylənərək hədiyyələr qazana, xüsusi köşkdə xatirələrinizi fotolara həkk edə bilərsiniz. Onlayn müsabiqələri sevən abunəçilər isə “Nar”ın sosial media səhifələrindəki yarışlara qoşularaq yay kampaniyasının yekununda keçiriləcək musiqili festivala bilet qazana bilərlər. Yay kampaniyası ilə bağlı yeniliklərdən kampaniyanın rəsmi simaları olan İradə Qədirova (Instagram: irada_gadirova <https://www.instagram.com/irada_gadirova/?igshid=YmMyMTA2M2Y=>), Samirə Əfəndi (Instagram: efendi_music <https://www.instagram.com/efendi_music/?igshid=YmMyMTA2M2Y=>) və Cəfər Nəcəfovu (Instagram: jafarnajafov <https://www.instagram.com/jafarnajafov/?igshid=YmMyMTA2M2Y=>) izləməklə xəbərdar ola bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Gənclər “Bakcell”in dəstəyilə öz biznesini quracaq ®




**“Bakcell” şirkəti “SOS Uşaq Kəndləri Azərbaycan” assosiasiyasının himayəsində yaşayan gənclərin iş imkanları və sahibkarlıq bacarıqlarının artırılmasına yönəlmiş növbəti layihəyə dəstək göstərib.**

Layihənin əsas məqsədi valideyn himayəsindən məhrum olmuş gənclərin sosial sahibkarlıq bacarıqlarının artırılması vasitəsilə əmək bazarına inteqrasiyasının təmin edilməslidir. Layihədə iştirak etmək istəyən gənclər 6 komandaya bölünərək “Komandanın qurulması” (“Team building”), “Gənclərin iştirakçılığı” və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri mövzularında təlim və seminarlarda iştirak edib. Qusar rayonunda “Sosial sahibkarlıq və biznesin qurulması” mövzusunda keçirilən 5 günlük düşərgədə gənclərə sosial sahibkarlıqla bağlı bilik və bacarıqlarını artırmaq üçün imkanlar yaradılıb. Növbəti mərhələdə onlar mentorların dəstəyilə öz biznes layihələrini hazırlayıb münsiflər heyətinə təqdim edəcək. Qalib elan olunan sosial sahibkarlıq layihələrini reallaşdırmaq üçün gənclərə maliyyə vəsaiti ayrılacaq.

Xatırladaq ki, Bakcell 2009-cu ildən etibarən “SOS Uşaq Kəndləri-Azərbaycan” Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Bu əməkdaşlıq çərçivəsində Assosiasiyanın himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə həyata keçirilən “Öz biznesinə başla və təkmilləşdir” layihəsi ”Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi” nominasiyası üzrə “Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb.



■ **Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin təşkil etdiyi müntəzəm avtobus marşrutu ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya 10 000-ci sərnişin səfər edib.**

Gülnar Kamal qızı Orucova dünənki reyslə Bakı Beynəlxalq Avtovağzal Kompleksindən yola salınıb. Əslən şuşalı olan, 5 yaşında ailəsi ilə Şuşanı tərk edən Gülnar Orucova 30 ildən sonra atası Kamal Həsənovla birgə doğma şəhərini ziyarətə gedib. Gülnarə Orucova qeyd edib ki, ailəsi məcburi köçkün olaraq Qəbələdə məskunlaşıb, buna baxmayaraq onlar Şuşaya bağlı ruhda böyüyüblər.



■ **Böyük Britaniyanın sabiq Baş naziri Boris Consonun istefasından sonra hakim Mühafizəkarlar Partiyasının lideri və hökumət başçısı vəzifəsinə iddialı olan xarici işlər naziri Liz Trass lazım gələrsə, nüvə silahından istifadə etməyə hazır olduğunu bildirib.**

Bu barədə “TASS” məlumat yayıb. “Hesab edirəm ki, bu, Baş nazirin mühüm vəzifəsidir.

Mən bunu etməyə hazıram”, - Böyük Britaniya Xarici İşlər Nazirliyinin rəhbəri Birminhemdə Mühafizəkarlar Partiyasının üzvləri ilə görüşdə krallıq üçün belə təhlükənin olacağı təqdirdə nüvə silahından istifadənin mümkünlüyü ilə bağlı sualı cavablandırarkən deyib.



■ **“Mən prezident olduğum müddətdə Minsk razılaşmalarının təkrarlanmasına imkan verməyəcəyəm”.**

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski Fransanın “L’Express” jurnalına müsahibəsində bildirib. “Rusiyanın vədlərinə etibar etmək olmaz. Heç kim vəziyyəti donduracaq və Minsk razılaşmalarının müşayiətilə Şərqdə baş verənləri xatırladacaq atəşkəsə inanmır”, - deyə Ukrayna lideri bildirib. Onun sözlərinə görə, bu razılaşmalar münaqişəni qısa müddətliyinə dayandırıb, lakin “sonra Rusiya genişmiqyaslı işğala başlayacaq”. Qeyd edək ki, dünən Ukraynanın müstəqilliyinin 31-ci ildönümü idi. Fevralın 24-də Rusiya Ukraynada genişmiqyaslı hərbi əməliyyatlara başlayıb.



■ **“Qayaüstü təsvirlərin bərpası, demək olar ki, mümkün deyil”. Bu sözləri Milli Qobustan Tarixi-Bədii Qoruğunun direktoru Vüqar İsayev deyib. Onun sözlərinə görə, yazıların qorunması üçün edilən təkliflərin sonrakı aqibəti də naməlumdur:**

”Qayaüstü təsvirlər daha çox qayanın aşınması, müəyyən bakteriyaların həmin qayaları məhv eləməsi zamanı sıradan çıxır. Məsələn, bizdə üzərinə ”Roma” yazılan qaya parçası var. Bu yazı artıq məhv olmaq üzrədir. Onun qarşısını almaq üçün bir neçə versiya düşünürük, amma o versiyaların da sonrakı nəticəsi naməlumdur”. Qoruq direktoru sözügedən problemin dünyada da olduğuna toxunub: ”Bu yaxınlarda Qazaxıstanda sırf bu mövzuda müzakirələr oldu.



■ **Ukraynaya hücum sürətinin ləngiməsi bilərəkdən verilmiş qərardır. Xüsusi hərbi əməliyyat plan üzrə gedir. Bunu Rusiya müdafiə naziri Sergey Şoyqu Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin müdafiə nazirlərinin iclasında bildirib.**

Onun sözlərinə görə, xüsusi hərbi əməliyyat zamanı hücumun sürətinin aşağı salınması mülki əhali arasında itkiləri minimuma endirmək istəyindən irəli gələn bilərəkdən verilmiş qərardır: ”Rusiya xüsusi hərbi əməliyyat zamanı azad edilmiş ərazilərdə dinc həyatın bərqərar olmasına çalışır, Kiyev isə “yanmış torpaq” taktikasını tətbiq edir”. Şoyqu bildirib ki, Ukraynadakı münaqişə ABŞ-ın Rusiyaya qarşı iqtisadi və informasiya müharibəsi başlatması üçün növbəti bəhanəyə çevrilib:



■ **1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin birdəfəlik ödəmə ilə təminatı prosesi davam edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan bu yeni sosial dəstək proqramı çərçivəsində birdəfəlik ödəmə ilə təmin edilən müharibə əlillərinin sayı artıq 13 mini ötüb. Həmin şəxslərə proaktiv qaydada birdəfəlik ödəmə təyin edilərək bank hesablarına köçürülüb, bu barədə onlara SMS göndərilib.

# Özəl məktəblərdə tədris ili avqustdan başlayır

**_Azərbaycanda yeni tədris ili hər il sentyabrın 15-də başlayır. Elm və təhsil naziri Emin Əmrullayev keçirdiyi brifinqdə bildirib ki, qeyri-adi nəsə baş verməsə, bu il də tədris ilinə sentyabrın 15-də başlanılacaq. Azərbaycanda fəaliyyət göstərən özəl orta məktəblərdə yeni tədris ili dövlət müəssisələrindən fərqli olaraq sentyabrın 15- də deyil, fərqli tarixlərdə başlayır. Bəzi özəl orta məktəblərdə avqustun əvvəlindən yeni tədris ilinə start verilib. Bəziləri isə avqustun 25-dən yeni dərs ilinə başlayacaqlar._**



## Təhsil

Maraqlıdır, yeni tədris ilinin dövlət və özəl ümumtəhsil müəssisələrində fərqli tarixlərdə başlaması nədən qaynaqlanır? Hansı səbəbdən özəl məktəblər dövlət təhsil müəssisələri ilə eyni vaxtda tədris ilinə başlamırlar? Bu məsələdə qanunvericilik nə deyir? Bu istiqamətdə vahid sistem tətbiq etmək olarmı?



**Ceyhun Məmmədov,**
Milli Məclisin deputatı

**■ Mövzunu qəzetimizə şərh edən Milli Məclisin Elm və təhsil komitəsi üzvü, millət vəkili Ceyhun Məmmədov deyib ki, bu məsələdə vahid sistem tətbiq edilməlidir: "Yeni tədris ilinin ayrı-ayrı vaxtlarda başlamasını düzgün hesab etmirəm.**

Düşünürəm, hamı eyni vaxtda başlamalıdır və yaxşı olardı ki, tədris ili sentyabrın 1-dən başlasın. Bu belə olduqda əlbəttə, həm tədris, həm təhsilə öz ciddi təsirini göstərir. Ona görə çalışmalıyıq ki, bu məsələdə reallıq nəzərə alınsın və müxtəlif vaxtlarda deyil, hər kəs eyni vaxtda yeni tədris ilinə başlasın. Bunun üçün də düşünürəm ki, ortaq məxrəcə gələrək sentyabrın 1-dən yeni dərs ilinə başlaya bilərik. Bu istiqamətdə də ümumi qaydalara əməl edə bilərik. Amma indiki vəziyyət sistemsizlik və müxtəlif suallar yaradır. Dünyanın müxtəlif ölkələrində tədris ili ayrı-ayrı dövrdə başlayır. Amma söhbət bizim ölkəmizdən gedirsə, hesab edirəm ki, ölkəmizdə vahid bir sistemin tarixinin tətbiq edilməsi məqsədəuyğundur".

**■ Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov isə özəl məktəblərdə yeni tədris ilinin dövlət təhsil müəssisələri ilə eyni vaxtda başlamamasında heç bir qəbahət görmədiyini bildirib:** "Özəl orta məktəblərdə yeni tədris ili dövlət müəssisələrindən fərqli olaraq sentyabrın 15- də deyil, müxtəlif tarixlərdə başlayır. Bunlar adlarından da göründüyü kimi, özəl məktəblərdir. Və onlarla bağlı qərarı məktəbin rəhbərliyi, bir çox hallarda həmin məktəblərin idarəetməsini həyata keçirən idarə heyəti verir. Yəni, onlar yeni tədris ilinin tarixini seçməkdə sərbəstdirlər. Artıq bir çox orta məktəblərdə avqustun əvvəllərindən yeni tədris ilinin başlaması halları var və bəziləri də avqustun 25-dən tədrisə başlayacaqlar. Bir daha qeyd edirəm ki, onlar özəl məktəb olduğundan tarix seçməkdə də sərbəstdirlər. Eyni zamanda, bu məsələ fərqlilik həm də özəl məktəblərdə mövcud infrastrukturdan qaynaqlanır. Çünki bu müəssisələrdə vahid soyutma sistemin olması yayda dərslərin tədris olunmasında hansısa çətinlik yaratmır. Yəni, hesab edirəm ki, bu məsələdə hansısa qəbahət də yoxdur. Əslində bunlarla bağlı qanunvericilik aktı da yoxdur. Özəl məktəblər fəaliyyətlərini öz nizamnamələri əsasında, eyni zamanda, Elm və Təhsil Nazirliyindən alınmış lisenziya əsasında qururlar. Həm tədris zamanları, həm dərs ilinin başlaması, həm dərs ilinin sona çatması həmin özəl məktəblərlə onların müştəriləri qismində iştirak edən valideynlər tərəfindən imzalanmış müqavilə əsasında həyata keçirilir. Və bu müqavilədə bütün detallar öz əksini tapmalıdır. Güman edirəm, bunlar valideynlərlə razılaşdırılmış formada reallaşdırılır. O ki qaldı bu məsələdə vahid sistemin tətbiq olunmasına, düşünürəm ki, mümkün deyil. Hər bir özəl orta məktəbin öz fərqli idarəetməsi var. Bu idarəetmə vahid mərkəzdən idarə olunmadığı üçün dərs ilinin başlanması və digər məsələlərlə bağlı vahid qərarlar

> *"Ortaq məxrəcə gələrək sentyabrın 1-dən yeni dərs ilinə başlaya bilərik*

> *Onlar özəl məktəb olduğundan tarix seçməkdə də sərbəstdirlər*



**İlqar Orucov,**
ARETN-in yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru

müəyyənləşdirmək qeyri-mümkündür. Əslində o fikirdəyəm ki, tutaq ki, dövlət orta məktəblərində dərs ilini sentyabrın 15-də başlayıb iyunun 14 də bitməsi və arada olan 3 aylıq yay tətili heç də yaxşı hal deyil. Lakin bu məsələ əlbəttə ki, daha çox iqlim şəraiti ilə bağlıdır. Məsələn, biz fərqli ölkələrə baxsaq görərik ki, onlarda da dərslər fərqli tarixlərdə başlayır. Tutaq ki, Almaniyada dərslər avqustda başlayır. Bəzi ölkələr var ki, ən uzun tətil heç 45 gündən artıq deyil. Yəni, 3 aylıq tətil müddəti şagirdləri məktəbdən xeyli uzaq salır. Nəzərə alaq ki, dərslərin başlaması ilə təxminən 1 həftə şagirdlərin məktəbə adaptasiya prosesi gedir. Digər tərəfdən dərs ilinin sonları da bir çox hallarda şagirdlərin fikirləri yayınır, daha çox yay tətili ilə bağlı planlar qururlar. Bütün bunları nəzərə alsaq görürük ki, əslində yay tətili 3 aydan da çox olur. Nəticədə şagirdlər təhsildən xeyli uzaq düşürlər. Qeyd etdiyim kimi, iqlim şəraiti, şagirdlərin sağlamlığı bizim üçün daha önəmli olduğundan dövlət bu qərarın üzərində dayanıb. Hesab edirəm ki, dərslərin sentyabrın 1-də başlayıb iyunun 14-də başa çatması dövlət məktəbləri üçün daha optimal ola bilərdi".

✍ **Sevinc**

# "Azercell"in əsas tərəfdaşlığı ilə "Qadın Dəstək Xətti" xidməti yaradılıb

**Azercell-in dəstəyi ilə yaradılan "Qadın Dəstək Xətti" xidməti ağır psixoloji duruma düşən, böhran və sosial təhlükəli vəziyyətdə yaşayan, fiziki və ya psixi zorakılıqla üzləşən qadınlara hərtərəfli yardım istiqamətində fəaliyyət göstərəcək.**

"Ümidli Gələcək" Gənclər Təşkilatı, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Komitəsi və "Azercell Telekom" MMC-nin dəstəyi ilə "Qadın Dəstək Xətti" xidmətinin yaradılmasının əsas məqsədlərindən biri məişət zorakılığı ilə mübarizə istiqamətində effektiv psixoloji, emosional və sosial dəstəyin təşviqi, zorakılıq qurbanlarının reabilitasiyası və cəmiyyətə reinteqrasiyasına kömək etmək üçün müvafiq imkanın göstərilməsidir.




Çətin həyat şəraitində olan zorakılıq qurbanları - qız və qadınlara "Qadın Dəstək Xətti"nin peşəkar işçi heyəti tərəfindən günün istənilən saatında dəstək veriləcək. Müraciətçilərə hüquqi, tibbi xidmətlərə çıxış, məşğulluqla bağlı məlumat veriləcək, onların ailə və yaşayış şəraitinin qiymətləndirilməsi əsasında sosial dəstək istiqamətində kömək ediləcək. Eləcə də xidmətə müraciət edən xanımlar mərkəzin psixoloqları, sosial işçi və hüquqşünasları tərəfindən icma əsaslı hüquq klinikalarına, reabilitasiya mərkəzlərinə, sığınacaqlara, hüquqi məsləhət verən QHT-lərə yönləndiriləcək. Zəruri hallarda müvafiq dövlət qurumları, yerli strukturlar və sosial xidmət müəssisələri ilə əməkdaşlıq nəticəsində müraciətlərin həllinə nail olunacaq.

Qeyd edək ki, "Qadın Dəstək Xətti" xidməti 2010-cu ildən Azercell-in əsas tərəfdaşlığı ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətti" ilə əməkdaşlıq çərçivəsində çalışacaq. "Azərbaycan Uşaq Qaynar Xətti" və "Qadın Dəstək Xətti"-nə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, facebook və instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

## İqtisadiyyat

**_Xəbər verdiyimiz kimi, Azərbaycanda un və çörəyin qiyməti yenidən bahalaşıb. Əslində, bu bahalaşma gözlənilən idi. Qlobal buğda bazarında baş verən tendensiyaların mənfi təsirləri Azərbaycandan yan keçə bilməzdi. Qeyd edək ki, bu gün dünya iqtisadiyyatında cərəyan edən iqtisadi-siyasi proseslər buğdanın və digər ərzaqların qiymətinə mənfi təsir göstərir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) qiymət indeksinə əsasən hazırkı ərzaq qiymətləri son 40 ilin maksimum həddindədir. Keçənilki ərzaq qiymətləri ilə müqayisədə 26 faizdən yuxarı artım olub. Bununla yanaşı, bəzi ölkələrin buğda ixracına tətbiq etdiyi kvota vəziyyəti daha da gərginləşdirib. Belə ölkələrin sırasına bizim regionun əsas buğda ixracatçıları olan Rusiya və Qazaxıstan da daxildir. Əvvəlki illərlə müqayisədə hazırda Qazaxıstanın ixrac kvotası cəmi 550 min tondur. Rusiya isə ötən illə müqayisədə buğda ixracını 13 faiz azaldıb._**

# Dünyada taxılın qiyməti ilin əvvəli ilə müqayisədə çox bahalaşıb

Xatırladaq ki, Azəbaycan xüsusilə ərzaqlıq buğdaya olan tələbatının əhəmiyyətli hissəsini idxal hesabına ödəyir. Ötən il xaricdən alınan buğdanın 95 faizi Rusiyanın payına düşüb. Bu ölkə isə buğdanın ixrac rüsümlarını xeyli artırıb. Belə ki, avqustun 5-nə kimi buğdanın ixrac rüsumu bir tonu üçün 100 ABŞ dolları idisə hazırda bu rəqəm 145 ABŞ dollarıdır və gələn ay 150 ABŞ dollarına çatacağı güman edilir.

Azərbaycanın iri un və çörək istehsalçılarının yaydığı birgə məlumatda isə bildirilir ki, cari ilin iyul ayında ölkəyə ərzaqlıq buğdanın orta idxal qiyməti 402,46 ABŞ dolları təşkil edib. Bu da 2021-ci ilin müvafiq ayı ilə müqayisədə 67 faiz (orta idxal qiyməti 241 ABŞ dolları), dekabr ayı ilə müqayisədə isə 18,4 faiz (orta idxal qiyməti 339,89 ABŞ dolları) yüksəkdir.

Yaranmış vəziyyətdə idxal qiymətləri (ərzaqlıq buğdanın son üç ay üçün orta aylıq idxal dəyərinin bir tonu üçün 365 ABŞ dolları səviyyəsində olması) və emal xərcləri nəzərə alınmaqla, qiymətlərin yuxarı hədləri müəyyənləşdirilib: 50 kq-lıq bir kisə unun Bakı şəhərində ən yüksək qiymət həddi - 40,70 manat. Nəticədə unun yeni qiymətinə uyğun olaraq 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 55 qəpik, 600 qr-lıq çörəyin pərakəndə satış qiyməti - 65 qəpik, 650 qr-lıq çörəyin pərakəndə satış qiyməti - 70 qəpik təşkil edəcək", - deyə məlumatda qeyd olunub.

Amma bununla yanaşı, diqqətçəkən suallar da var. Məsələn, niyə ərzaqlıq buğdanın qiyməti son 20 ilin rekord həddinə çatanda, Azərbaycanda unun və çörəyin qiymətlri bahalaşmadı, amma bu strateji məhsullarda 1 il ərzində 2 dəfə qiymət artımı qeydə alındı? Təbii ki, bu da səbəbsiz deyil.

**■ İqtisadçı-ekspert Eldəniz Əmirovun sözlərinə görə, bu ilin əvvəlindən birjalarda müşahidə olunan qiymət tendensiyasına baxsaq görərik ki, aprel ayında dünya birjalarında 1 ton ərzaqlıq buğdanın qiyməti təxminən 403 ABŞ dollarında idi:** "Həmin vaxt nə unun, nə də çörəyin qiyməti qalxmadı. Amma avqust ayının 1-nə olan buğda qiymətləri 328 dollar təşkil edib. Göründüyü kimi son 3 ayda (may, iyun, iyul) aylarında ərzaqlıq buğdanın qiyməti 19 faiz azalıb.

Onda sual yaranır niyə aprel-may aylarında buğda qiymətləri indiki qiymətin 122 faiz olduğu zaman qiymət artmadı, amma indi artım qaçılmaz olub? Bununla bağlı rəsmi münasibət (dəqiq izah) olmadığı üçün biz son 8 ayın vəziyyətini təhlil edərək, səbəb haqqında məntiqi nəticəyə gələ bilərik.

Gəlin bu ilin yanvarına baxaq. Yanvar ayında baş verənlərə diqqət etsək görərik ki əsas səbəblər məhz bu ayda baş verənlərdən çox asılıdır. Belə ki, 2022-ci ilin yanvar ayında artıq çörəyin qiyməti qalxdı. Üstündən cəmi 2 ay keçdikdən sonra buğdanın qiyməti maksimuma (403 $) qalxıb deyə yenidən unun və ya çörəyin qiymətinin qaldırmaq ciddi yanlışlıq olardı. Buna görə də nə un 403 dollar olanda, nə də 380 olanda qiymət artımı söhbət mövzusu olmadı".

Ekspert əlavə edib ki, həm də bu aylarda Azərbaycanda çörəyin qiymətinin qalxmamasına daha bir amil ciddi kömək etdi. Bu amil taxıl ehtiyatı amili idi. Azərbaycan bu ilin yanvarında heç vaxt etmədiyi qədər taxıl idxal edib: "Hətta 2021-ci ilin eyni dövrü ilə müqayisədə ölkəmizə 4 dəfə çox taxıl idxal olunub (2021-ci ilin yanvar-noyabr aylarında isə ölkəyə 1 milyon tondan çox buğda gətirilib). Görünür ölkə rəhbərliyi və aidiyyəti subyektlər müharibə ehtimalını artıq proqnoz edib və ərzaq təhlükəsizliyi üçün qabaqlayıcı tədbir kimi müharibədən əvvəlki ayda 300 faiz artıq idxal əməliyyatı həyata keçirilib. Düşünürəm ki, həm yanvardakı qiymət artımı, həm də 4 dəfə artıq tədarükün olması ötən 7 ay ərzində çörəyin qiymətinin qorunub saxlanılmasına imkan verib. İndi isə şərtlər dəyişir. Ehtiyatlar işləndikcə, yenidən idxalı artırmaq lazımdır. Hazırda dünyada taxıl bazarındakı vəziyyət isə ilin əvvəli ilə müqayisdə çox bahalaşıb. Bu isə yenidən unun qiymətinin sabit saxlanılması üçün əlavə vəsaitlərin xərclənməsini tələb edir".



> *"Son 3 ayda (may, iyun, iyul) aylarında ərzaqlıq buğdanın qiyməti 19 faiz azalıb*

Xatırladaq ki, bu ilin yanvarından çörəyin qiyməti ölkəmizdə bahalaşmışdı. İqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti un və çörək istehsalçıları ilə birlikdə bu məhsulların qiymətlərinin yuxarı hədləri müəyyənləşdirmişdi. 50 kiloqramlıq ununun bir kisəsinin qiyməti 36 manat olmuşdu. Bundan öncə unun bir kisəsi 26 manata satılırdı. Unun qiymətində baş vermiş artım çörəyin qiymətinə də təsir etmişdi. 500 qramlıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti 50 qəpik, 650 qramlıq ənənəvi çörəyin pərakəndə satış qiyməti 65 qəpik olmuşdu. Bu gündən isə un 4 manat 70 qəpik, çörək isə 5 qəpik artımla satılır.

Yeri gəlmişkən, bu ildən digər Cənubi Qafqaz ölkələrində də un və çörəyin qiymətində bahalaşma müşahidə olunur. Məsələn, Gürcüstan hökuməti ötən ilin iyun ayının sonuna kimi birinci dərəcəli 50 kiloqramlıq buğda ununun kisəsinə 20 larilik (11 AZN) subsidiya tətbiq edirdi. Onun ləğvindən iki həftə sonra tələbatı yüksək olan yarım kiloqramlıq "sosial" adlanan çörəyin qiyməti təxminən 15 tetri (0,27 AZN) bahalaşaraq 1 lariyə (0,55 AZN) çatıb. Hazırda bu növdən olan çörək daha 10 faiz bahalaşaraq 65 qəpiyə təklif olunur.

Ermənistanda isə hələ ötən ilin sentyabr ayından çörəyin qiyməti 30-50 dram (0,11-0,18 AZN) bahalaşıb və yarım kiloqramlıq "məşhur" "Matnakaş" çörəyinin qiyməti 350 drama (1,25 AZN) çatıb. Ondan daha azçəkili olan çörək əvvəlki 110 dram əvəzinə 140-150 drama (0,55 AZN ) satılır.

✍ **Sevinc**

# Bəyazrəngli qazax yurtası Bakıda

***Dənizkənarı bulvara yolu düşən hər kəs buradakı bəyazrəngli çadıra böyük maraqla baş çəkir. Qazax yurtasını deyirəm, avqustun 6-da açılışı olub və o gündən bu yana hər gün Bakı şəhər sakinlərinin ziyarət yerinə çevrilib. Mən orada olanda da onlarca azərbaycanlı müsafir vardı: kimi qazax milli geyimlərində şəkil çəkdirir, kimi Qazaxıstanın görməli yerlərini, mədəniyyətini əks etdirən stendlərə baxır, kimi də qazaxıstanlı sənətçilərin fasiləsiz olaraq səsləndirdikləri musiqidən zövq almağa çalışırdı.***

## Reportaj



Bulvarın yuxarıbaşında - Azadlıq meydanı ilə üzbəüzdə qurulmuş qazax yurtası bir böyük, bir də kiçik - yardımçı çadırdan ibarətdir. Yurtanın milli ornamentlərlə bəzədilmiş iç divarlarında qazax xalqının tarixi şəxsiyyətlərindən bəzilərinin, məsələn, Abayın, əl-Farabinin və başqa iri portretlər asılıb. Yurtanı ziyarət edənlər divardan asılmış, qədim türk millətinin kimliyini təcəssüm etdirən iri, boz qurdun - canavarın dərisini də öz gözləriylə görə bilərlər. Hətta axşam saat 8-dən sonra gələn ziyarətçilərə qazax milli mətbəxinin nemətlərindən olan çörək, çay və şirniyyat da təklif olunur.

■ **Yurtada olarkən təşkilatçı şirkətin - "Discover Almaty" turoperatorun direktoru Aleksandr Aknazarovla da həmsöhbət oldum.** Qonaqların çox olmasına baxmayaraq yurta haqqında məmnuniyyətlə məlumat verdi. Bildirdi ki, Bakı Dənizkənarı bulvarında yurta qurmaqda məqsədləri qazax milli mədəniyyətini, eləcə də Qazaxıstanın turizm potensialını təbliğ etməkdir. "Biz burada öz turizm imkanlarımız haqda danışır, mədəniyyətimizi təbliğ edirik. Həm də, gördüyünüz kimi, sənətçilərimiz qonaqlara milli musiqimizi təqdim edir. İnsanlar yurtaya sevə-sevə, böyük həvəs və maraqla gəlirlər. Biz öz azərbaycanlı ziyarətçilərimizi el adətlərimizə uyğun şəkildə - Qazaxıstan milli mətbəxinin təamlarından çay və şirniyyata qonaq edirik. Bura ölkəmizdən un da gətirmişik ki, qazax çörəyi bişirərək ziyarətçilərə təklif edə bilək. Çörək milli mətbəximizin şahıdır, çox böyük mənəvi dəyəri var" deyən cənab Aknazarov yurtanın niyə məhz indi açılmasının səbəbini əsaslandırarkən qeyd etdi ki, Qazaxıstan - Azərbaycan diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü ilə əlaqədar belə bir tədbiri keçirmək qərarına gəliblər. "Qərara gəldik ki, qardaş Azərbaycana səfər edərək öz milli dəyərlərimizi nümayiş etdirək. Bu gün burada Qazaxıstanın tanınmış musiqi qrupu iştirak edir. Eyni zamanda, Qazaxıstanın tanınmış aşpazlarından biri də hazırda Bakıdadır. O, masterklass keçirməyi planlaşdırıb", - Aleksandr Aknazarov bildirir.



Yurtanın açılış mərasiminin avqustun 5-də keçirildiyini, səhəri gün isə ziyarətçilərin üzünə açıldığını xatırladan həmsöhbətim tədbirin ayın 31-dək davam edəcəyini və inşallah, davamlı olacağını qeyd etdi. Onun fikrincə, bu prosesin ənənə halını alması və təbii ki, növbəti illərdə də Bakıda, hətta Azərbaycanın digər şəhərlərində təşkil olunması xalqlarımızı bir-birinə daha yaxından tanıtmağa kömək edəcək. "Bayaq dediyim kimi, biz bura zəngin qazax mətbəxinin tacı sayılan çörəyimizi gətirmişik ki, qardaş Azərbaycan xalqı ilə bölüşək", - Aknazarov deyir.

Bu arada yalnız Qazaxıstan deyil, adətən ölkəmizdə bu kimi bütün xarici tədbirlər birmənalı olaraq ancaq Bakıda təşkil edilir. Bu incikliyimi həmsöhbətimə çatdırdım. Anlayışla qarşıladı, dedi ki, ilk tədbir olduğu üçün Bakıdadırlar, amma əmindir ki, gələcəkdə Azərbaycanın bölgələrinə də çıxa biləcəklər. "Azərbaycanda qazax milli mədəniyyətinə böyük marağın olması bizi çox sevindirir. Hər gün çox sayda şəhər sakininin yurtaya təşrif buyurduğunu görürəm və bu məni hədsiz məmnun edir. Bura qocadan cavana hər kəs gəlir. Budur, özünüz də baxın: ailələr, gənclər, qocalar - kimi istəsəniz görə bilərsiniz. Hamı Qazaxıstanın mədəniyyəti, mətbəxi, musiqisi ilə maraqlanır. Bu çox böyük sevgidir qazax xalqına qarşı", - Aleksandr Aknazarov söyləyir.

Çoxları bilir ki, Qazaxıstan ərazi baxımından dünyanın ən böyük ölkələrindən biridir. Ərazisi böyükdürsə, deməli bu ölkədə regional mədəni fərqliliklər də çoxdur. O zaman maraqlıdır, yurta bütün Qazaxıstan mədəniyyətini təmsil edə bilirmi? Həmsöhbətimin sözlərinə görə, xeyr. Aknazarov dedi ki, Qazaxıstanın 18 regionundan yalnız beşi burada təmsil olunur. Bunlar Almatı və Çimkənd şəhərləri, habelə Türküstan, Manqıstan və Almatı vilayətləridir. Amma, deyir Aknazarov, pozitiv olmaq lazımdır, gələcək illərdə çalışacaqlar ki, Qazaxıstanın bütün regionları Bakıdakı yurtada təmsil olunsunlar. "Azərbaycanlılar deyirlər ki, qazaxlar qardaş xalqdır və vahid türk millətinin övladları kimi, bizə çox isti münasibət göstərirlər. Burada azərbaycanlılardan bu sözləri eşitmək məni sevindirir, qürurlandırır", - həmsöhbətim davam edir.

Demək ki, iki qardaş xalq arasında bu cür mədəni-tanıtım xarakterli tədbirləri çoxdan, özü də mütəmadi keçirmək lazımmış. Hər halda, bu gün belə bir layihə reallaşıbsa, alqışlanmalıdır. Bəs Bakıda yurta açmaq kimin və ya hansı təşkilatın ağlına gəlib, müəllif kimdir? Aknazarov bu suallara aydınlıq gətirdi: "Tədbir Qazaxıstanın Azərbaycandakı səfirliyi, "Discovir Almaty" turizm şirkəti, "Air Astana" aviaşirkəti və Qazaxıstanın Azərbaycandakı Ticarət Evinin dəstəyi ilə keçirilir. Amma unutmaq olmaz ki, bu layihənin reallaşmasına Azərbaycan hökuməti də çox böyük dəstək verir. Biz şirkət olaraq əvvəlcə məqsəd-məramımızı Qazaxıstan səfirliyinə bildirdik, müzakirə etdik və yekun nəticəyə gəldik.

Artıq iki həftədən çoxdur ki, Bakıda olmağımızın məqsədi xalqlarımız arasında körpü rolunu oynamaq, onları bir-birinə daha yaxından tanıtmaq, qazax milli mədəniyyətini, turizmini təbliğ etməkdir. Çox şadam ki, məhz bu tədbir çərçivəsində iki ölkə arasında bir sıra memarandumlar imzalanacaq. O cümlədən, Qazaxıstan və Azərbaycan Turizm Assosiasiyaları arasında sənədin imzalanması gözlənilir. Bundan başqa, Qazaxıstanın Çimkənd şəhəri ilə Azərbaycanın Gəncə şəhəri arasında qardaşlaşma haqda memerandum da imzalanacaq. Çox sevinirik ki, iki qardaş ölkə və xalq arasında əlaqələrin daha da genişlənməsinə öz töhfələrimizi verə bilirik".

■ **Aknazarovla söhbəti tamamlayıb yurtadan çıxdım. Adam əlindən tərpənmək olmurdu, başqa musiqiçilər də gəlmişdi, hər kəsin üzündə sevinc dolu maraq vardı. Mən də izdihama qarışaraq, "Qonşudan geri qalma", - deyib bir-iki xatirə şəkli çəkdirdim. Yeni gələn musiqiçilərə yaxınlaşıb ayaqüstü söhbət elədim.**

"Mən Aybul Xudayberginəm, musiqi qrupu olaraq Qazaxıstanın Taldı Kurqan şəhərindəki Sumbay adına filarmoniyanı təmsil edirik. Azərbaycan dilində desək, aşıqlar qrupuyuq" deyən musiqiçi müsahibim qeyd etdi ki, Azərbaycanda olduqları və qazax milli musiqisini təbliğ etdikləri üçün xoşbəxtdirlər. "Gördüyünüz kimi, əynimizdə sak kostyumu var və biz qazax klassik milli musiqi alətlərində ifa edirik. Hava limanındakı bəzi məhdudiyyətləri nəzərə alaraq bura ancaq klassik musiqi alətlərindən ən məşhur olanları seçib gətirdik. Bunlar dombra, şertir, qobus, şanqobus və barbutdur. Hə, bir də zərb alətlərimiz var", - Aybul Xudaybergin bildirir.

Musiqiçi həmsöhbətim dedi ki, ilk dəfədir Azərbaycana gəlir. "Burada Qazaxıstana və qazax milli mədəniyyətinə olan sevgi və hörmət məni heyran edib. Görürəm ki, mədəniyyətimiz Azərbaycanda hər kəsə maraqlıdır. Bu da təbidir, vahid türk millətinin övladlarıyıq. Uzun illərdir bəlli səbəblərdən bir-birimizdən uzaq düşmüşük, insanlarımız bir-birinin mədəniyyətindən, incəsənətindən ayrı qalıblar. Budur, baxıb görürəm ki, insanlar əynimimizdəki milli geyimlərə, ifa etdiyimiz musiqi alətlərinə necə böyük maraqla baxırlar", - Aybul Xudaybergin vurğulayır.

*✍ Vüsal Tağıbəyli*

# Rəşad Nəbiyev "Azercell" ilə görüş keçirib ®

**Avqust ayının 22-si cənab Rəşad Nəbiyev "Azercell Telekom" MMC-nin prezidenti və rəhbər heyəti ilə görüş keçirdi. R. Nəbiyev Azercell-in strateji təşəbbüsləri və gələcək planları barədə cari status hesabatlarını dinlədi.**

Cənab nazir, xüsusilə, abunəçilərin dinamik şəkildə artan ehtiyaclarını qarşılamaq üçün ölkə üzrə Azercell şəbəkəsinin genişləndirilməsi və modernizasiyası kimi irimiqyaslı layihənin icrasına dair hesabatla tanış oldu. Bu layihə 4G şəbəkəsinin tutumunun Bakı və Abşeron yarımadasında 80%, rayonlarda isə 75% genişləndirilməsini təmin edəcək. Həmçinin, cənab nazirə şəbəkənin genişləndirilməsi layihəsi üzrə işğaldan azad edilmiş ərazilərdə 80-dən çox yeni 4G baza stansiyasının qurulması və şirkətin satış və xidmət mərkəzlərinin istismara verilməsi haqqında məlumat verildi.



Nazir telekommunikasiya sənayesinin ən son trendlərinə uyğun olaraq Azercell-in təqdim etdiyi məhsul və rəqəmsal həllər barədə də məlumatlandırıldı. Belə layihələrə özündə həm maliyyə, həm də mobil rabitə imkanlarını birləşdirərək abunəçilərə rəqəmsal ödənişlər həyata keçirməyə imkan verən fintek həlli aiddir. Şirkətin perspektiv planlarına gəlincə, cənab Nazirə əminliklə bildirildi ki, Azercell öz infrastrukturunun genişləndirilməsi və modernizasiyasına yatırım etmək, həm də abunəçiləri üçün innovativ rəqəmsal həllər təqdim etmək istiqamətində təşəbbüslərini davam etdirəcək. Nazir Azercell komandasına şirkətin həyata keçirdiyi uğurlu layihələrə görə təşəkkür etdi və gələcək təşəbbüslərin həyata keçirilməsində müvəffəqiyyətlər arzuladı.

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏHKUMU



ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin əri Pol Pelosi sərxoş vəziyyətdə avtomobil idarə edərək qəza törətdiyinə görə məhkum edilib. Bu barədə "The Wall Street Journal" məlumat yayıb. Kaliforniya dairə məhkəməsi Pol Pelosinin zərərçəkənə 4900 dollar təzminat və məhkəmə xərcləri üçün 1723 dollar ödəməli olduğuna qərar verib. Həmçinin ona 5 sutka həbs cəzası verilib. Bundan əlavə, Pol Pelosi üç il sınaq müddətinə məhkum edilib.

### Həftənin QƏTLİ



Rusiyanın məşhur ictimai xadimi, filosof və politoloq, Rusiya Prezidenti Vladimir Putinin məsləhətçisi Aleksandr Duqinin qızı Darya Duqinanın olduğu avtomobil partladılıb. 30 yaşlı Duqina hadisə yerində ölüb. Onun tamamilə yanmış meyitini ekspertizadan sonra tanımaq mümkün olub. Avtomobili Darya Duqinanın özü idarə edirmiş. Məlumata görə, tədbirlərin birindən birlikdə çıxan Aleksandr Duqinlə qızı eyni avtomobilə əyləşməli imiş. Lakin filosof son anda fikrini dəyişərək başqa maşınla yola düşüb. Hədəfin Aleksandr Duqin ola biləcəyi ehtimal edilir. Faktla bağlı cinayət işi açılıb.

### Həftənin CƏZALISI



Yeniyetmə və gənclər arasında Avropa çempionu, yunan-Roma güləşçisi Zaur Əliyev dopinqə görə cəzalandırılıb. Bu barədə Azərbaycan Milli Antidopinq Agentliyi qərar qəbul edib. Əliyev 2 antidopinq qayda pozuntusuna yol verib. Zaur Əliyev U-17 və U-23-lər arasında Avropa çempionu olub, 4 dəfə aşağı yaşlılar arasında dünya çempionatlarının mükafatlarını qazanıb.

### Həftənin TƏMİZKARI



Türkiyədə sənətçi İbrahim Tatlısəsin məşhurlaşdırdığı müğənni Engür Kalenderin evindən iki yük maşını zibil çıxıb. Bu barədə "Habertürk" məlumat yayıb. Bildirilib ki, psixoloji problemləri olan Engür Kalenderin anası ilə birlikdə İstanbulda yaşadığı evini bələdiyyə işçiləri təmizləyib. Qonşuların sözlərinə görə, evdə nə su, nə də işıq var. Heyvan zibilləri və kiflənmiş əşyalarla dolu evdən hətta ölü pişik balaları da çıxıb.

### Həftənin TƏBİƏT DÜŞMƏNİ



Avqustun 19-u Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə İsmayıllı rayonu, Qaraqaya kənd sakini Abbasov İsa Mürsəl oğluna məxsus bağ sahəsində və ətraf ərazilərdə yanğın baş verməsi barədə məlumat daxil olub. Hadisə ilə bağlı FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən keçirilmiş operativ tədbirlərlə yanğının qəsdən törədildiyi müəyyən olunub. Belə ki, yanğın hadisəsinin 1951-ci il təvəllüdlü Abbasov İsa Mürsəl oğlu tərəfindən törədildiyi aşkar edilib və vətəndaş törətdiyi əməli etiraf edib. Faktla bağlı toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə göndərilib.

### Həftənin XADİMƏSİ



Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında oğurluq etdiyi bildirilən qadının görüntüləri yayılıb. Sosial şəbəkədə yayılan görüntülərdə şəhərdə Travmatologiya Xəstəxanası kimi tanınan xəstəxanada özünü sanitar kimi təqdim edən qadının həkim otaqlarından xeyli pul, qızıl və sair əşyalar oğurladığı qeyd edilib. Belə ki, ağzını maska ilə örtmüş, eynək taxmış qadın xadimə geyimində özünü xəstəxana əməkdaşı kimi tanıdıb və otaqları bir-bir gəzərək əlinə keçən qiymətli əşyaları oğurlayıb.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Xankəndi küçələrində 100 metrlik Rusiya bayrağı ilə aksiya**

"

# Hədəfdə Xankəndidir...

**Aydın Quliyev,**
siyasi ekspert

Bu hadisə sübut etdi ki, müharibdən sonrakı ritorikanı Azərbaycan müəyyənləşdirir.

Səh. 4

## STATİSTİKA



■ **2022-ci ilin yanvar-iyul aylarında Azərbaycanda əməkhaqqı fondu daha 16 faiz artıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu artımın əsasında qeyri-leqal məşğulluğun qarşısının alınması üçün görülən kompleks tədbirlər, ardıcıl əməkhaqqı islahatları, əmək müqavilələrinin sayının daima artması dayanır. Ümumilikdə aparılan islahatlar nəticəsində son 4 ildə illik əməkhaqqı fondu 2,2 dəfə və ya 8 milyard manat artıb.



Səh. 6

# "Şort davası"